# HEYDƏR ƏLİYEV



*Türk və müsəlman dünyasının fəxri, Azərbaycan xalqının qüdrətli oğlu! Dünya siyasətinin nəhəngi və hətta rəqibləri tərəfindən yüksək qiymətləndirilən nadir bir şəxsiyyət"!*

*Heydər Əliyev XX əsr Azərbaycan siyasətinin ən parlaq siması və XXI əsr müstəqillik kursunun memarıdır. Onun həyata keçirdikləri, nəzəri ifadə etdiyi, praktiki diplomatiyaya verdiyi töhfələr hələ uzun illər araşdırılacaq. Və hər dəfə də yeni bir incəlik tapılacaq. Bu proses sonsuzdur...*

*1993-cü ilin iyun ayının 15-də Azərbaycan müstəqil dövlət kimi uçurumun kənarında dayanmışdı. Ölkəyə rəhbərlik edən səriştəsiz siyasi qruplar çıxış yolu tapa bilmirdilər. Düşmən isə addım-addım müstəqil dövlətçiliyimizə qəsd etməkdə idi. Onun qarşısını ala bilmirdilər. Bu ağır zamanda xalq təkidlə Heydər Əliyevin siyasət səhnəsinə qayıdışına nail oldu. Elə həmin anda da düşmən düşərgəsində təcrübəli bir siyasətçi "biz batdıq" naləsini çəkdi. Həyat həmin erməni kommunist siyasətçinin haqlı olduğunu sübut etdi!*

*Və hər şey həmin tarixdən - iyunun 15-dən başladı. Bu tarix bir neçə anlamda Azərbaycanın qurtuluşunun başlanğıcı oldu. Birincisi, dövlətçilik ideyası iflasdan qurtuldu. Çünki dövlət idarəçiliyinin nə olduğunu bilməyən naşı adamlar Azərbaycan cəmiyyətində tədricən müstəqillik ideyası ilə bağlı bədbin əhval-ruhiyyə yaradırdılar. Bir-birini əvəz edən məğlubiyyətlər insanlarda belə bir şübhə yaradırdı: "bəlkə biz, heç müstəqil dövlət qurmağa qadir deyilik?" Tarix göstərir ki, bu pessimizm çox təhlükəlidir və faktiki olaraq millətin öz məğlubiyyətini qəbul etməsinin ilk dərin göstəricisidir.*

*Əgər cəmiyyətdə dövlət quruculuğuna inam yoxdursa, onu başqa heç bir ideya ilə ayaqda durmağa məcbur etmək mümkün deyildir. Düşmənlər tərəfindən aparılan təxribatçı ideoloji fəaliyyət yaranmış vəziyyəti daha da acınacaqlı edirdi. Bu məqamda siyasət səhnəsinə Heydər Əliyev çıxdı və xalqda dövlət quruculuğuna dərin inam yaratdı! Buna necə nail oldu? Hər şeydən əvvəl, təmkinli, ölçülü-biçili, inamlı və real siyasəti ilə vəziyyəti dəyişdi. Heydər Əliyev müxtəlif bölgələrə səfərləri zamanı siyasi qruplar arasındakı ziddiyyətləri yumşalda bildi və onlara dövlət üçün çalışmağın əsas vəzifə olduğunu anlatdı. Bu zaman Ulu öndərin siyasi və diplomatik ustalığı həqiqətən də dövlət quruculuğu tarixinin ən parlaq səhifələrindən oldu.*

***Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevin irsi olduqca zəngindir. Onun həyat fəaliyyətində ibrətverici məqamlar kifayət qədərdir. Ulu öndərin irsinin dərk edilməsi özlüyündə çətindir. Lakin Azərbaycanda müstəqil dövlət quruculuğunda gördüyü işləri təhlil edib geniş oxucu kütləsinə çatdırmaq dövlət əhəmiyyətli strateji məsələdir. Çünki Heydər Əliyev nadir tarixi şəxsiyyətlərdəndir ki, mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bildi.***

*Əvvəlcə Azərbaycanı böyük bir fəlakətdən xilas etdi, sonra isə dövrün tələblərinə yüksək dərəcədə cavab verən müstəqil demokratik dövlət quruculuğu konsepsiyasını işləyib hazırladı, Azərbaycanın dünyada layiqli yerini tutması üçün uzun illər çalışdı, müstəqil Azərbaycanın memarı və qurucusu kimi tarixdə yerini tutdu. Heydər Əliyev barədə dünyanın tanınmış şəxslərinin ifadə etdiyi fikirlər bir daha onun nə dərəcədə müdrik, eyni zamanda, praqmatik bir lider olduğunu təsdiqləyir. Ümummilli lider əsl məktəbdir, başqa xalqların həsəd apardığı dövlətçilik məktəbi! Heydər Əliyevin fəaliyyətinin bir sıra aspektləri üzərində geniş dayanmağa böyük ehtiyac hiss edirik.*

*Ulu öndər Heydər Əliyev haqqında adi söz demək mümkün deyil. Onun barəsində səmimi ifadə edilən hər bir fikirdə bir ucalıq, yüksək məna çaları var. Dünyanın müxtəlif ölkələrinin siyasi liderlərinin Ümummilli liderlə bağlı söylədiklərini bir yerə cəmləşdirsək, dünyanın ən dahi siyasi liderlərindən birinin "siyasi portreti" alınar. Və hər kəs də onu dərhal tanıyar: "Bu, Heydər Əlirza oğlu Əliyevdir.*

# ZƏRİFƏ ƏLİYEVA



***Gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim. Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca yaddaşımızda Ulu Tanrının bu ən yüksək mənəvi xüsusiyyətləri bəxş etdiyi böyük insanın obrazı canlanır, gözlərimiz önündə onun portreti yaranır.***

*Zərifə xanım Əliyeva elə insan idi ki, bir dəfə ünsiyyətdə olanlar onu ömrü boyu unuda bilmirdilər. Bu böyük şəxsiyyət elə ilk andan onunla ünsiyyətdə olanların yaddaşında yüksək vətəndaşlıq, humanizm və ürək saflığının mücəssəməsi kimi əbədi qalırdı. Onun insanlara məhəbbəti qeyri-adi dərəcədə hüdudsuz idi. Zərifə xanım sevib seçdiyi, ömrünü həsr etdiyi sənəti ilə bu istedadını tam gerçəkləşdirə bilirdi.*

*Aprelin 28-də XX əsr Azərbaycan tarixinin görkəmli simalarından sayılan Zərifə xanım Əliyevanın anadan olmasının 88-ci ildönümü tamam olur. Zərifə xanım 1923-cü il aprelin 28-də qədim Naxçıvanın Şahtaxtı kəndində görkəmli ictimai və dövlət xadimi, xalqımızın böyük oğlu Əziz Əliyevin ailəsində dünyaya göz açmışdır. Atasının ömür yolu onun üçün əsl həyat məktəbinə çevrilib.*

*Zərifə xanım Əliyeva müasir, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - ümummilli lider Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olub. Vaxtilə Əziz Əliyevin ailəsində görüb-götürdükləri yaxşı bir təcrübə kimi ölkənin birinci şəxsinin xanımı olduğu zamanlarda köməyinə çatıb. O, ulu öndərimizə mənəvi dayaq, arxa olub.*

*Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. Onun elmi fəaliyyəti çox zəngin və əhatəli olmuşdur. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb.*

*Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə, habelə traxomanın və onun ağır nəticələrinin müalicəsi zamanı o dövrdə yeni olan antibiotiklərin imkanlarından səmərəli istifadə etməyin öyrənilməsinə həsr edib.*

*Bu tədqiqatların nəticələri Zərifə xanım Əliyevanın 1960-cı ildə "Sintomisin terapiya metodlarının başqa birləşmələri traxomanın müalicəsi" mövzusunda müvəffəqiyyətlə müdafiə etdiyi namizədlik dissertasiyasının əsasını təşkil edib.*

*1968-ci ildən başlayaraq Zərifə xanım Əliyeva professional oftalmologiyanın problemləri ilə ciddi məşğul olub. Bu sahənin əhatə dairəsinin çox geniş olmasına baxmayaraq, gözün peşə xəstəlikləri probleminə dərin və çoxsahəli marağını Zərifə xanım Əliyeva bütün həyatı boyu itirməmişdir. Alim dünyada ilk dəfə olaraq peşə patalogiyasını araşdıran elmi-tədqiqat laboratoriyası yaratmış və praktiki olaraq elm aləmində yeni bir istiqamətin - peşə oftalmologiyasının əsasını qoyub. Apardığı tədqiqatların gedişində "Göz yaşının axmasının fiziologiyası", "Gözün və görmə sinir yolunun yaşla əlaqədar dəyişiklikləri", "Gözün hidrodinamik sisteminin anatomik fizioloji təbiəti" və s. kimi onlarla elmi məqalələr və monoqrafiyalar çap etdirib.*

*Uzunmüddətli müşahidələrin və tədqiqatların nəticələri görkəmli həkimin "Azərbaycanın kimya sənayesinin bəzi müəssisələrinin işçilərinin görmə üzvünün vəziyyəti" mövzusunda doktorluq dissertasiyasının əsasını təşkil edib. 1976-cı ildə Q. Helmqolts adına Moskva Göz Xəstəlikləri İnstitutunda həmin dissertasiyanın müdafiəsi zamanı Sovet İttifaqının aparıcı alimləri Zərifə xanımın elmi əsərlərini çox yüksək qiymətləndiriblər.*

*Zərifə xanım Əliyevaya 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi verilib.*

*Görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqat işlərinin uğurlu nəticələrinə görə akademik Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb.*

*Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: "Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək , hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir".*

# İLHAM ƏLİYEV



**Prezidentimiz mötəbər beynəlxalq təşkilatların - BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə diqqəti cəlb edir, milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyur, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır.**

***Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsi olan İlham Əliyev 2003-cü ildə Azərbaycan Prezidenti seçildi. Onda İlham Əliyevin 42 yaşı vardı və o, dünyanın ən gənc dövlət başçılarından biri idi. Həmin vaxtdan 14 il keçir. Prezident İlham Əliyev yeni əsrin yeni lideri olaraq Azərbaycanı inamla irəli aparır. Onun hakimiyyət illəri ölkənin dinamik inkişafı, sürətlə modernləşməsi, dünyada nüfuz və söz sahibinə çevrilməsi ilə səciyyəvidir.***

*Prezident İlham Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkə iqtisadiyyatı sürətli və dinamik inkişaf dövrünə qədəm qoydu. Yaxşı xatırlayırıq ki, İlham Əliyev ilk dəfə prezident seçiləndə ölkədə 600 min yeni iş yerinin yaradılacağını vəd etmişdi. Onda bu rəqəm bəzilərinə xəyal kimi görünürdü. İllər keçdi xəyal hesab edilənlər reallığa çevrildi. Ötən 14 ildə Azərbaycanda 1 milyon 800 mindən çox yeni iş yeri yaradıldı. Bu və digər addımların nəticəsi olaraq yoxsulluq 50 faizdən 5 faizə düşdü. Dünyada ən sürətli templərlə inkişaf edən Azərbaycanın iqtisadiyyatı 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə artdı. Ölkə iqtisadiyyatına 180 milyard dollar investisiya qoyuldu.*

*Prezident İlham Əliyevin ölkəmizin müstəqillik dayaqlarını möhkəmləndirməklə bağlı fəaliyyəti daha çox xarici siyasətdə özünü göstərdi. Xarici siyasət kursunda tarazlaşdırılmış konsepsiyaya üstünlük verən İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı. Ölkəmizin dostlarının sayı çoxaldı, bizimlə müttəfiqlik etmək istəyən ölkələrin sırasına yeniləri əlavə olundu. Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanındı və qəbul edildi. Bunu sübut edən ən böyük amillərdən biri Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü seçilməsi oldu. Müstəqillik tariximizin ən böyük nailiyyəti olan bu hadisə Azərbaycanda yürüdülən siyasətə və beynəlxalq birliyin Prezident İlham Əliyevin fəaliyyətinə verdiyi önəmin, Azərbaycana olan inam və etimadın təzahürüdür. Ölkəmiz nəticə etibarilə bütün regional məsələlərdə əsas oyunçuya çevrilib.*

*İlham Əliyevin müəyyənləşdirdiyi hücum diplomatiyası nəticəsində erməni təbliğatı və erməni lobbisinin yaratdığı mif darmadağın edildi. Beynəlxalq təşkilatların diqqəti bu problemə yönəldi, Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında həqiqətlər bütün dünyaya yayıldı və beynəlxalq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdi. Dünya birliyi Xocalı soyqırımını tanımağa və pisləməyə başladı.*

# MEHRİBAN ƏLİYEVA



***Əliyeva Mehriban Arif qızı 1964-cü il avqustun 26-da Bakı şəhərində ziyalı ailəsində anadan olub.1981-ci ildə Bakı şəhəri 23 №-li orta məktəbi qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.***

1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirib. 28 noyabr 1990-cı - 13 oktyabr 1995-ci illər ərzində Moskvada akademik Krasnovun rəhbərliyi altında Göz Xəstəlikləri Elmi-tədqiqat İnstitutunda işləyib. 1995-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə hal-hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyət Fondu təsis olunub. 1996-cı ildə Mehriban Əliyeva Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə üç dildə (Azərbaycan, ingilis və rus) çap olunan "Azərbaycan - İrs" jurnalını təsis edib. 2002-ci il oktyabrın 7-də Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilib. Onun yüksək təşkilatçılıq qabiliyyəti və beynəlxalq aləmdə artmaqda olan nüfuzu Beynəlxalq Gimnastika Federasiyasının bədii gimnastika üzrə dünya kubokunun "A" kateqoriyalı mərhələsinin (2003), Dünya kubokunun (2004), 27-ci Dünya çempionatının (2005), 23-cü (2007), 25-ci (2009) və 30-cu (2014) Avropa çempionatlarının Azərbaycanda keçirilməsinə dair qərarın qəbul olunmasında həlledici rol oynayıb. Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Heydər Əliyev Fonduna rəhbərlik edir. 2004-cü il may ayının 10-da Heydər Əliyev Fondunun rəsmi açılışı olub. 2004-cü il avqustun 13-də Azərbaycanın şifahi xalq ədəbiyyatının və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz səylərinə görə Mehriban Əliyeva UNESCO-nun Xoşməramlı səfiri adına layiq görülüb. 2004-cü il dekabrın 28-də Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin IV Baş Məclisində MOK-un İcraiyyə Komitəsinə üzv seçilib. 2004-cü ildən Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür.

# RƏHİMOVA VƏSİLƏ



Hər kəs özünün ibtidai məktəbdə, birinci sinifdə oxuduğu illəri xoş xatirə kimi anır və bu xatirələrdə ən əziz yeri, əlbəttə ki, ona sevgi və qayğı ilə qələm tutmağı, yazı yazmağı, kitab oxumağı öyrədən müəllim tutur.

**Ümummilli liderimiz Heydər Əliyev həmişə müəllim əməyini yüksək qiymətləndirirdi. Dahi şəxsiyyət öz müəllimlərini minnətdarlıqla xatırlayar, onların xidmətləri haqqında ürəkdolusu danışardı. Ulu Öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə həmişə müəllimə hörmət və ehtiramla yanaşıb, onların maddi rifah halının qayğısına qalıb. "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq".**

Müəllimlik dünyada ən çətin, eyni zamanda ən şərəfli və ən gözəl peşədir.Bu gözəl və şərəfli işin dəyərini bilən əcdadlarımız həmişə müəllimə hörmətlə yanaşmışlar.Müəllimlər şagirdlərin dərin və hər tərəfli bilik almaları, yaşadıqları dövrün problemlərindən baş çıxarmaları üçün bütün bilik və bacarıqlarını sərf edirlər. Valideynlə bərabər, bəlkə də, ondan daha çox, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözmək, kədəri ilə kədərlənib, sevinci ilə sevinmək müəllimlərin üzərinə düşən ağır yükdür.

Belə müəllimlərimizdən biri də təcrübəli, bir o qədər də savadlı və işini bilən müəllimlərimizdən olan Vəsilə müəllimdir. Rəhimova Vəsilə Şəfa qızı 1974-cü ildə avqust ayının 1-də Azərbaycanın gözəl guşələrindən biri olan Ağdam rayonunda Qiyaslı kəndində dünyaya gəlib. 1990-cı ildə Ağdam rayon Eyvazxanbəyli kənd orta məktəbdə orta təhsilini başa vurub. Təhsil aldığı dövrlərdə müəllimlərinin sevimlisi olan Vəsilə müəllimə məktəbi bitirdikdən sonra elə həmin il yüksək göstərici ilə M.Ə.Sabir adına Bakı Pedoqoji Texnikumun ibtidai metodika ixtisasına daxil olur. 1993-cü ildə məktəbi bitirdikdən sonra, artıq iş həyatına qovuşmağa can atır. Nəhayət ki, uşaqlıq arzusu olan müəllimlik sənətinə qovuşur. Vəsilə müəllim olaraq 1994-cü ildə Bərdə rayon Təhlə kənd əsas məktəbində ilk şagirdlərinin qarşısına çıxır. Burada da öz bilik və bacarığı ilə ön planda olur.

Müəllim olaraq şagirdlərini daima sevib , dəstəkləyib. Ilk müəllim olaraq unudulmaz iz qoyub tələbələrinin üreyində. Əlindən tutub yazmağı öyrədən, ana, vətən sözlərini əzbərlədən müəllimlərini unutmurlar. 1996-cı ilə qədər Vəsilə müəllim həmin məktəbdə fəaliyyət göstərir. 1997-ci ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Bərdə rayonu Tumaslı kənd ümumi orta məktəbində fəaliyyətini davam etdirir. Uzun illərdir çalışan peşəkar müəllim, iş həyatında olduğu qədər ailə həyatında da 3 övladını uğurla böyüdür. Şagirdlərini övladlarından ayırmayan Vəsilə müəllim onların yaddaşında qayğıkeş, vicdanlı sevimli müəllim olaraq qalıb. Biz də redaksiyamız adından Vəsilə müəllimə gələcək həyatında uğur və nailiyyət dolu həyat arzulayırıq.

# TƏHSİLİN KÖKLƏRİ ACI MEYVƏLƏRİ ŞİRİNDİR

## (Aristotel)

RƏŞİD SƏNANƏ

***Sosial-iqtisadi həyatın müasirləşməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımı şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara nümunəvi ailə üzvünə və vətəndaşa çevrilir.***



Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır.Təhsilin normativ- hüquqi bazası təkmilləşdirilmiş maddi texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir.

Sürətlə modernləşən Azərbaycan Respublikasının təhsil sisteminin insan kapitalının inkişafı çağrışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac vardır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün, təhsili idarəetmə sisteminin yenidən qurulması bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.



Azərbaycan Respublikasında təhsilin inkiçafı üzrə dövlət strategiyası Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan səriştəli müəllim və təhsil menecerlərinə qabaqcıl texnologiyalarına əsaslanan infrastuktura malik təhsil sisteminin yaradılması üçün bu istiqamətdə geniş tətbirlər həyata keçirilir. Bu yazımı gələcəkdə həkim olmaq üçün əzmlə çalışan Rəşid Sənanə Eldost qızına həsr etmək etməyirəm.

Rəşid Sənanə Eldost qızı 17 sentyabr 2010-ci ildə Göyçay rayonunda anadan olub. 2016-cı ildə Göyçay rayon Z.Bünyadov adına 3 saylı tam orta məktəbinə daxil olub.

Hal-hazırda həmin məktəbdə 3"c" sinifində təhsilini davam etdirir. Nümunəvi və çalışqan şagirdimizin sevimli fənni Azərbaycan dili ən çox sevdiyi və hörmət bəslədiyi müəllimi isə Nigar müəllimdir. Nigar müəllim Sənanənin sinif rəhbəridir. O Sənanənin 3 il ərzində yaxşı oxuması üçün əlindən gələni edib. Nigar müəllim simasında Vəfa müəllim, Pərvanə müəllimin də onun elmə biliyə yiyələnməsində əvəzsiz rolu var. Sənanə boş vaxtlarını bədii kitablar oxumaqla musiqiyə qulaq asmaqla keçirdiyi bildirib. Gələcək peşəsini də indidən seçən və ona nail olmaq üçün butun var qüvvəsini elmə həsr edən Sənanənin ən böyük arzusu yüksək bal toplayıb həkim olmaqdır. O bildirib ki, peşəkar həkim olmaq üçün mütləq qarşına məqsəd qoymalısan və o məqsədə çatmaq üçün daim çalışmalısan. Həkimlik məsuliyyətli bir sənətdir, çünki ən əsas qüvvə olan insan sağlamlığının qeydinə qalınmasına yönəlmiş peşədir. Sənanənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası-Rəşidov Eldost Ağamirzə oğlu 23 dekabr 1982-ci ildə Göyçay rayonunda anadan olub. Ali təhsillidir. Hazırda Göyçay rayon təhsil şöbəsində böyük mühasib işləyir. Ali təhsilli olan Eldost bəy övladlarına nümunə olan atadır.




O övladlarının təhsilli, gələcəyin parlaq gəncləri olması üçün əlindən gələni edir.

Anası-Rəşidova Gülnar Əliyar qızı 6 iyul 1988-ci ildə Göyçay rayonunda anadan olub. Ali təhsillidir.Həm kollec həm də universitet bitirib.Şəki Tibb Texnikomunun müalicə işi və Gəncə Dövlət Universitetinin mühasibatlıq fakültəsini bitirib. Hazırda Göyçay rayon təhsil şöbəsində mühasib işləyir.Sənanənin 1 qardaşı var.Rəşid Şənol Eldost oğlu 7 sentyabr 2009-cu ildə Göyçay rayonunda andan olub. Hazırda 4-cü sinifdə oxuyur.

Biz də öz adımızdan Sənanə balamıza gələcək həyatında nailiyyətlər müvəffəqiyyətlər arzulayırıq. Uğurları davamlı olsun.

# “QƏDİMDƏ İNSANLAR ELMİ KAMİLLİYƏ YETMƏK NAMİNƏ ÖYRƏNDİKLƏRİ HALDA, BU GÜN ONU DÜNYANI FƏTH ETMƏK NAMİNƏ ÖYRƏNİRLƏR” *(KONFUTSİ)*

MALİK ZİYADOV




**Qədim zamanlardan elmdə nailiyyətlər əldə etmək üçün çalışıblar. Təbiəti öyrənib, bununla cəmiyyəti məlumatlandırmağa səy göstəriblər.**

Hazırda dövlət savadlı kadrların hesabına iqtisadi, hərbi və elm sahəsində irəliləməyi qarşıya məqsəd qoyub. Yalnız savadlı, təhsilli gənclərin hesabına bu sahələrdə uğurlar qazanmaq, beynəlxlaq arenada Azərbaycanı layiqincə təmsil etmək mümkündür. Yalnız savadlı cəmiyyətlə irəli getmək, uğurlara nail olmaq, ölkəni tanıtmaq mümkündür. Elmin vacibliyini hələ qədim zamanlardan dərk ediblər.

Jurnalımızın bu sayında Ziyadov Malik haqqında məlumat verəceyik. Ziyadov Malik Radim oğlu 2008-ci ildə mart ayının 19-da Saatlı rayonunun Mustafabəyli kəndində dünyaya gəlmişdir. 2015-ci ildə Saatlı rayon V.Əzimov adına Qıraqlı kənd tam orta məktəbin 1-ci sinfinə getməklə təhsil həyatına qədəm qoyub. Hazırda həmin məktəbin 4”a” sinifində təhsilini müvəffəqiyyətlə davam etdirir. Məktəb həyatına təzəcə qədəm qoyan Malik öyrənməyə çox meyillidir. O, az yaşlı olmasına baxmayaraq müəllimlərin sevgisini qazanmışdır. Dərslərinə hər zaman hazırlıqlı olan Malikdən ən çox sevdiyi müəllimini soruşduqda Rəna müəllimin adını çəkir. Evdə ailəsinin qayğısını görən uşaqların məktəblərə uyğunlaşması



çətin olur. Lakin müəllim mehriban və qayğıkeş olarsa şagirdləri məktəbə cəlb edə bilər. Dərs oxumağı çox sevən Malik boş vaxtlarında müxtəlif, rəngarəng şəkillər çəkir, müəllimlərinin və ailəsinin tərifini alır. Bütün dərslərini əla qiymətlərlə oxuyan kiçik Malikin idman sahəsində də xüsusi istedadı var. O, idmanın taekvando növü ilə peşəkar səviyədə məşğul olub. Kiçik Malik balamız artıq gələcək peşəsini də seçib. Onun ən böyük arzusu gələcəkdə Polis Akademiyasına daxil olub bu məsuliyyət tələb edən peşəyə yiyəlnməkdir. O, polis olaraq təhlükəsizliyi və əsayişi təmin edən biri olmaq arzusundadır. O, bilir ki, məqsədinə çatmaq üçün çox çalışmalıdır. Malik hər zaman çalışır ki, ailəsinin və müəllimlərinin ona qarşı olan ümüdlərini doğrultsun.

Malikin ailəsi 4 nəfərdən ibarətdir. Atası Ziyadov Radim Malik oğlu 1980-ci ildə mart ayının 1-də anadan olub, sürücüdür. Anası Ziyadova Yeksanə Əlimərdan qızı 1989-cu il yanvar ayının 21-də anadan olub, evdar xanımdır. Malikin Fatimə adında kiçik, şirin şəkər bacısı var. O, 2010-cu ildə noyabr ayının 17-də anadan olub, 1-ci sinif şagirdidir. O,da məktəbin əlaçı,seçilən şagirdlərindəndir. Fatimə məsuliyyətli olması ilə qardaşından geri qalmır.

Biz də öz jurnalımız adından Malik və bacısını təbrik edirik,gələcək həyatlarında uğur və nəaliyyətlər diləyirik. Arzu edirik ki,vətənə,millətə layiqli övlad olsunlar, qazandığı uğurlarla daim ailələrinin fəxri olsunlar, başlarını uca tutsunlar.

**ZEYNALOVA SƏKİNƏ**



# "İNSANLAR ADƏTƏN ONLARA MƏLUM OLAN ŞEYLƏRİN TƏBİƏTİ HAQQINDA DÜŞÜNMÜRLƏR. HƏDDİNDƏN ARTIQ ORJİNAL ZƏKA TƏLƏB OLUNUR Kİ ÖZLÜYÜNDƏ AYDIN OLAN ŞEYİ TƏHLİL ETMƏYİ BACARASAN.(UAYTHED)"

*Hazırda cəmiyyətin qarşısında duran vəzifələrin yerinə yetirilməsi xeyli dərəcədə fəal və hərəkətli inkişaf etmiş şəxsiyyətin formalaşdırılması prosesinin səmərəliliyindən asılıdır. Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız bugünkü təcrübənin deyil, həm də pedaqoji fikrin zəngin ideyalarını nəzərə almaq lazımdır. Azərbaycan maarifpərvərləri şəxsiyyətin ən müsbət cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində axtarmışlar, çünki münasibətlər insanın həyat təcrübəsinin nəticəsi olmaqla onun hərəkətlərini və daxili hisslərini müəyyənləşdirir.*

Nəticədə insanın bir şəxsiyyət kimi formalaşması prosesinə təsir edən amillər haqqında müxtəlif fikirlər meydana gəlmişdi. Əsrlər, min illər boyu bu amillər içərisində üstünlük irsiyyətə verilmiş və belə bir fikir irəli sürülmüşdür ki, valideynlərdə müsbət və mənfi nə varsa övladlara keçir. İrsiyyət nəzəriyyəsinin hakim olduğu dövrlərdə zəka sahibləri həmin nəzəriyyəni qəbul etməklə yanaşı, tərbiyəyə böyük əhəmiyyət verirdilər. Elmin, təhsilin, tərbiyənin böyük gücünə inanan və onu təbliğ edən Nizami Gəncəvi bəzən irsiyyətin mütləq təsirini inkişafın əsas amili kimi götürürdü.




İnsanın cəmiyyətdə düzgün tərbiyə edilməsində bir sıra amillər mühüm rol oynayır. İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhətdən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər yaranır. Buna görə də cəmiyyətimizin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir.

Jurnalmızın bu sayında vaxtını elmə sərf edən elm yolunda özünə yol yoldaşı olaraq kitabları seçən Zeynalova Səkinə haqqında müəllimlərindən öyrəndiklərimizi sizinlə bölüşək.

Zeynalova Səkinə Fərhad qızı 15 sentyabr 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. 2014-cü ildə Kürdəmir rayon M.Ə.Rəsulzadə adına 2 nömrəli məktəbin 1-ci sinifinə daxil olaraq məktəb həyatına başlamışdır. İbtidai sinifi əla qiymətlərlə başa vuran Səkinə artıq 5"Ç" sinifində oxuyur. Əsas tədris fənləri olan Azərbaycan dili və riyaziyyata sonsuz marağı olan Səkinə sinifdə nümunəvi şagird adını alıb. Sevimli rəğbət bəslədiyi



müəllimləri Naibə müəllim və Gülşən müəllimdir. Müəllimlik sənətini yüksək qiymətləndirən Səkinə bildirib ki, müəllimlik hər şeydən öncə şagirdlərinə ürəyini vermək onlara yaşamağı, yaratmağı öyrətməkdir. Müəllim fədakar, vicdanlı olmalıdır. Dərslərindən əlavə fitri istedadını təkmilləşdirən Səkinə rəssamlıqla da məşğul olur. Aydındır ki, rəssamlıq yaradıcı bir peşədir. Onun çəkdiyi rəsmlərə baxarkən necə bir yaradıcı ruha malik olduğunu görmüş olduq.

Müsahibimizlə söhbət apararkən uğurlarından söz düşdükdə o ən böyük uğurunun 2017-ci il novruz bayramı ərəfəsində olduğunu qeyd edib. Novruz bayramına aid “Elimizə bahar gəlir” mövzusunda keçirilən rəsm müsabiqəsində 1-ci yerə layiq görüldüyü üçün Uşaq yaradıcılıq mərkəzinin direktoru tərəfindən diplomla təltif edilmişdir. 1 iyun uşaqların beynəlxalq müdafiəsinə həsr olunmuş rəsm müsabiqəsində 2-ci yerə layiq görülmüş və diplomla təltif edilmişdir.

Səkinənin gələcəkdə ən böyük arzusu uşaq həkimi olmaqdır.

Sağlamlığı ilə bağlı əziyyət çəkən uşaqlara öz şəfalı əlləri ilə məlhəm olmaq istəyir. Boş vaxtlarını maraqlı kitablar oxumaqla və rəsm çəkməklə məşğul olur. Səkinə 2012-ci ildə Kərbəlanı ziyarət edib. Bu da onun dinimizə nə qədər üstünlük verdiyini nə qədər bağlı olduğunu göstərən faktdır. Səkinəyə hər zaman arxa dayaq olan ailəsi onun hər uğuruna sevinir, ona hər zaman dəstək olurlar. Səkinənin ailəsi 4 nəfərdən ibarətdir.




Atası Zeynalov Fərhad Əziz oğlu 19 avqust 1983-cü ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda sürücü işləyərək ailəsini halal zəhməti ilə dolandırır.

Anası Zeynalova Günel Kamil qızı 15 noyabr 1989-cu ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Səkinənin bir bacısı bir qardaşı var.

Qardaşı Zeynallı Əlirza Fərhad oğlu 23 iyul 2010-cu ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 3-cü sinifdə oxuyur.

Bacısı Zeynalova Fatimeyi-Zəhra Fərhad qızı 3 iyul 2007-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 6-cı sinifdə oxuyur.

Təhsilli bilikli şagirdlərin yaşadıqları ömrün hər anları həm sevincli həm də mənalıdır. İndidən gecə-gündüz oxuduqları kitablarla əziyyətləri gərgin anları çox olsa da gələcəkdə sevincli anları daha çox olacaqdır. Belə şagirdlərin gələcəkdə uğurları saysız-hesabsız dərəcədə çox olacaqdır. Arzu edirik ki, Səkinə də belə şagirdlərdən olsun. Qazanacağı uğurları ilə sevdiklərinin müəllimlərinin fəxri olsun.

# "BİLİYİN İÇ ÜZÜ BİLİKLƏR SİSTEMİNƏ DAXİL OLANDA MƏLUM OLUR (ƏBU TURXAN)"

**ZEYNALOVA FATİMEYİ-ZƏHRA**



Zeynalova Fatimeyi-Zəhra Fərhad qızı 3 iyul 2007-ci ildə Kürdəmir rayonunun Atakişili kəndində anadan olub. Ömrün mənalı və gözəl illərini əhatə edən təhsil həyatına 2013-cü ildə Kürdəmir şəhər M.Ə.Rəsulzadə adına 2 saylı məktəb -liseyinin 1-ci sinifinə qədəm qoyaraq başlamışdır. Hazırda həmin məktəbdə 6"a"sinifdə oxuyaraq təhsilini davam etdirir. Bu gün azyaşlı balamızın keçirdiyi şagirdlik həyatı romantik duyğularla dolub daşır. 6 ildir ki, öz istedad və qabiliyyəti ilə fərqlənən Fatimeyi-Zəhra balamız bütün dərslərini əla qiymətlərlə oxuyur. Ən sevimli fənləri Azərbaycan dili, Riyaziyyat, Azərbaycan tarixi, Biologiyadır. Bu fənləri ona sevdirən, maraq oyadan Natavan müəllim, Aygül müəllim, Aygün müəllim və Nuranə müəllimin rolu böyükdür. Dərslərini yaxşı oxumaqla yanaşı fitri istedadını təkmilləşdirmək üçün rəsm çəkməklə də məşğul olan Fatimeyi-Zəhran bu sahə üzrə bir neçə dəfə diplomlarla təltif edilib. Təbiət gözəlliklərini , həyatın füsunkarlığını, sirli-soraqlı dünyamızın sehrini ağ kağıza köçürən Fatimeyi-Zəhranı rəssamlıq sənətinin vurğunudur desək yanılmarıq. 2017-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi "Uşaq gənclər inkişaf mərkəzinin dəstəyi ilə" yeni il gününə həsr olunmuş rəsm müsabiqəsində 1-ci yeri tutduğuna görə diplomla təltif edilmişdir. Azərbaycan Respublikasının Prezident yanında Gənclər Fondunun dəstəyi ilə Uşaq və yeniyetmələrə dəstək ictimai birliyinin keçirdiyi "UNESCO-da Azərbaycan İrsi-10 layihəsində iştirak etdiyinə görə sertifikatla təltif edilmişdir. 2018-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatı dəstəyi ilə "Respublika gününə həsr olunmuş "yarışda 1-ci yerə layiq görülüb və fəxri diplomla təltif edilib. Rəsm sahəsi üzrə istedadını daha da artırmaq üçün hətta asudə vaxtlarını belə rəsm çəkməklə keçirir.Həyatda ən böyük idealı atası və anasıdır. Fatimeyi-Zəhra artıq öz peşəsini seçib. O müəllim olmağı və gələcək nəsilərə öz töhfələrini vermək istəyir. Dinimizə bağlı olan qızımız 2012-ci ildə Kərbalayı ziyarət edib. Onun ailəsi 4 nəfərdən ibarətdir. Atası Zeynalov Fərhad Əziz oğlu 19 avqust 1983-cü ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda sürücü işləyərək ailəsini halal zəhməti ilə dolandırır.

*Təbəssüm dolu gülüş dolu sevinc və kədər dolu məktəb həyatı. Onların sevinci də kədəri də bir dünya bir aləmdir. Ulu Tanrı hər dərddən hər qəmdən uzaq eləsin bütün şagird balalarımızı. Gəncliyinin xoş ovqatını, romantikasını xoş təbəssümündə gətirən jurnalmızın növbəti qəhrəmanı Fatimeyi-Zəhra balamızın arzu istəkləri gələcəyə nikbin baxışları da xoş niyyətlidir. Onunla apardığımız kiçik müsahibəmizdə o qeyd etdi ki, indi onu düşündürən bir amal var:Oxumaq təhsil almaq vətəninə layiqli gənc olmaq. Sizləri istedadlı və gələcəyi parlaq olan dərs əlaçısı və məktəbin fəxri şagirdi Fatimeyi-Zəhra ilə tanış etmək istəyirəm.*





Anası Zeynalova Günel Kamil qızı 15 noyabr 1989-cu ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Fatimeyi-Zəhranın bir bacısı və bir qardaşı var.

Qardaşı Zeynallı Əlirza Fərhad oğlu 23 iyul 2010-cu ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 3-cü sinifdə oxuyur.

Bacısı Zeynalova Səkinə Fərhad qızı 15 sentyabr 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 5-ci sinifdə oxuyur.

Bu gün Fatimeyi-Zəhra daxili ilahi bir harmoniyaya , mənəvi möhtəşəmlik, mənəvi ruhi zənginliyə malik bir gənc kimi formalaşır. Kollektivimiz



adından ona gələcək təhsil həyatında uğurlar arzulayırıq.

# "CƏMİYYƏT MƏNTİQİN UNİVERSALLIĞI SAYƏSİNDƏ MÜMKÜN OLMUŞDUR.(TUR XANDER)"

***ZEYNALLI ƏLİRZA***

**İnsan dünyaya bioloji varlıq kimi gəlir, lakin bir şəxsiyyət kimi özünün fərdi həyatı və fəaliyyəti prosesində uzun və mürəkkəb yol keçərək yetkinləşir.**

Şəxsiyyətin inkişafı ilə əlaqədar olaraq yalnız onu deyə bilərəm ki, bugünkü təcrübənin deyil, həm də pedaqoji fıkrin zəngin ideyalarını nəzərə almaq lazımdır. Azərbaycan maarifpərvərləri şəxsiyyətin ən müsbət cəhətlərini onun cəmiyyətdəki münasibət və fəaliyyətində axtarmışlar, çünki münasibətlər insanın həyat təcrübəsinin nəticəsi olmaqla onun hərəkətlərini və daxili hislərini müəyyənləşdirir. İnsanın cəmiyyətdə düzgün tərbiyə edilməsində bir sıra amillər mühüm rol oynayır. İnsan ayrı-ayrı yaş dövrlərində fiziki, psixi və mənəvi cəhət-



dən müxtəlif xüsusiyyətlərə malik olur, onun xarakterində müəyyən yeniliklər, dəyişikliklər yaranır. Buna görə də cəmiyyətimizin üzvü olan insan bilməlidir ki, hansı şəraitdə və hansı amillərin təsiri altında inkişaf edir, onun inkişafında irsiyyətin, mühit və tərbiyənin rolu nədən ibarətdir. Cəmiyyətin inkişafının əsasında duran ən mühüm amil insanın formalaşması, təlim və təhsil almasıdır. İnsanın bir şəxsiyyət kimi formalaşmasında aldığı təhsilin rolu böyükdür. Elm, savad, təhsil həm də dünyagörüşüdür, insanı yüksəldən mənəvi ucalıqdır. İnsan yalnız elmi ilə, bacarığı ilə başqalarından fərqlənə, onlara nisbətən üstün mövqeyə malik ola bilər.Hər bir şagird məktəbli həyatında qazandığı biliklərlə get-gedə təkmilləşir püxtələşir.

Bu gün M.Ə.Rəsulzadə adına 2 saylı məktəb liseyinin müəllimlərinin adının qürurla çəkdikləri şagirdlərdən olan Zeynallı Əlirza da elmi biliyi ilə ön sıralarda dayanan şagirdlərimizdəndir. Yaşının çox kiçik olmasına baxmayaraq səsi-sorağı qələbə sevinci ilə gələn Əlirzanın məktəbli həyatından öyrəndiklərimizi geniş oxucu kütləsinə təqdim edirik.

Zeynallı Əlirza Fərhad oğlu 23 iyul 2010-cu ildə Kürdəmir rayonunun Atakişili kəndində dünyaya göz açmışdır . Təhsil həyatına 2016-cı ildə



M.Ə.Rəsulzadə adına 2 saylı məktəb-liseyinə daxil olmaqla başlayıb. Hazırda həmin məktəbdə 3"b" sinifdə oxuyur.Ən sevimli fənni riyaziyyat olan



Əlirza bu fənni ona sevdirən İradə müəllimi çox sevir. Öyrədən müəllimdən daim öyrənməyi özünə borc bilən Əlirza öyrəndiklərinə görə məktəbə sevimli müəlliminə minnətdardı.

Uğurlarına gəldikdə isə müsahibimizlə apardığımız söhbətdə o bildirdi ilk uğurum keçən il olub. 2017-2018-ci il tədris ilini əla qiymətlərlə başa vurmağım nümunəvi şagird olduğum üçün məktəb rəhbərliyi tərəfindən tərifnamə ilə təltif edilmişəm. Qazandığı uğura görə sinif müəllimi İradə müəlliməyə özünü borclu sayır.Əlirza asudə vaxtlarını idmanla məşğul olur. Xüsusilə də idmanın güləş növü üzrə. Gələcəkdə ən böyük arzusu polis olub xalqına sədaqətlə xidmət etməkdir. Dinimizə bağlı olan Əlirza 2012-ci ildə Kərbalanı ziyarət edib. Ağıllı mehriban balamızı bütün qohumlar doğmalar çox sevir.



Evin son beşiyi olan Əlirzanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Zeynalov Ferhad Əziz oğlu 19 avqust 1983-cü ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda sürücü işləyərək ailəsini halal zəhməti ilə dolandırır.

Anası Zeynalova Günel Kamil qızı 15 noyabr 1989-cu ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Ailəsi Əlirzaya həm maddi həm də mənəvi cəhətdən arxa-dayaqdılar. Əlirzanın gələcəyinin parlaq olması



üçün əlindən gələni əsirgəmirlər.

Əlirzanın 2 bacısı var.

Zeynalova Fatimeyi-Zəhra Fərhad qızı 3 iyul 2007-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 6-cı sinifdə oxuyur.

Zeynalova Səkinə Fərhad qızı 15 sentyabr 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 5-ci sinifdə oxuyur.

Kollektivimiz adından Əlir-




za balamıza müvəffəqiyyətlər diləyirik. Qazandığı nailiyyətlərin bundan da çox olmasını hər zaman sevdiklərinin başını uca etməsini arzulayırıq.

# "ELMİ OLUB AČILI OLMAYAN ADAMA ELM ƏZİYYƏT VERƏR."

## (Nuşirəvan Adil Xosrov)

Sözlərimə ümummilli liderimiz H.Əliyevin məşhur kəlamı ilə başlamaq istəyirəm. "Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, rəssam, yazıçı, bunlar, fitri istedа malik insanlardır." Bu o deməkdir ki fitri istedadlı insanlar vaxtında aşkarlanmalı, onlara xüsusi diqqət və qayğı göstərilməlidir. Elə ölkə prezidentinin sərəncamı ilə həyata keçirilən "Xüsusi istedada malik uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı "da" bu məqsədlə yaranıb.

*Bu gün Azərbaycan təhsili dünya təhsil sisteminə inteqrasiya edir.Hazırda ölkəmizdə xüsusi isteda malik uşaqların yaradıcılıq potensialnın inkişaf etdirilməsi məqsədi ilə sistemli iş aparılır. İstedadlı uşaqlarımızı inkişaf etdirmək və ölkəmizə tanıtmaq üçün çoxlu materiallar məqalələr çap olunub. Biz də Təhsil Yenilikləri "kollektivi adından çalışırıq ki, belə istedadlı uşaqlar haqqında məqalələr dərc edək və onları ölkəmizə tanıdaq. Jurnalmızın bu sayının qəhrəmanı istedadlı şagirdimiz olan Yahyayeva İlahə İlqar qızıdır.*

*Yahyayeva İlahə İlqar qızı 7 iyul 2007-cı ildə Ağdamın rayonunun Əfəndili kəndində anadan olub. 2013-ci ildə Kürdəmir rayon Rüstəm Quluyev adına 5 nömrəli kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olaraq öz təhsil həyatına başlamışdır. Hazırda həmin məktəbin 6"a" sinifində oxuyaraq təhsilini davam etdirir. İlk gündən öz təlim-tərbiyəsi ağılı ilə müəllimlərinin rəğbətini qazan İlahənin ən sevimli fənləri*

**YAHYAYEVA İLAHƏ**



*Azərbaycan dili,ingilis dili rus dili biologiya və riyaziyyatdır. Onun daima yaxşı oxuması üçün əlindən gələni edən uğurlarına daim sevinən müəllimləri Aidə müəllim, Ülviyyə müəllim , Namiq müəllim, Natalya müəllim, Əsginaz müəllim, Gülnar müəllimdir. Bu müəllimlərin onun qəlbində xüsusi yeri var. Əlaçı olan qızımızın gələcəkdə ən böyük arzusu riyaziyyat müəllimi olmaqdır. Asudə vaxtlarını isə elmə sərf edən İlahə bədii kitablar oxuyur riyaziyyatdan müəyyən çalşmalar edir. Çünki bədii kitab onun bədii təxəyyülünü və nitq qabiliyyətini inkişaf etdirir. İlahənin ailəsi 3 nəfərdir.*

*Atası Yahyayev İlqar Bayram oğlu 19 iyul 1975-ci ildə Ağdam rayonunda anadan olub. Zəhmətkeş ata hazırda tikinti şirkətində usta işləyərək ailəsini özünün halal zəhməti ilə dolandırır.*

*Anası Yahyayeva Aynurə Ağdam rayonunda anadan olub. Orta təhsilli olan Aynurə xanım hazırda evdar xanımdır.*

*İlahənin 1 qardaşı var. Yahyayev İlkin İlqar oğlu 2004-cü ildə anadan olub. Hazırda orta məktəbdə 9-cu sinifdə oxuyur.*

*Elm təhsil böyük bir mübarizə, əzmkarlıq tələb edir.Gərək məqsədli olub, bu yolda yorulmadan istiqamətlənəsən.Biz də kollektivimiz adından İlahə balamıza gələcək həyatında uğurlar arzulayırıq ,seçdiyi peşənin sayılıb seçilənlərindən olmasını diləyirik.*

# ELM TƏBİƏT KİTABINI OXUYUR VƏ ÖYRƏNDİKLƏRİNİ TƏBİƏTİN ÖZ ÜZƏRİNDƏ SINAQDAN KEÇİRİR. *(ƏBU TURXAN)*

## XUDUYEV TOFİQ



***Hədəf və məqsədi bəlli olan bir elm sahibi üçün əbədi davam edəcək bərəkət qaynağı və tükənməz xəzinədir.Bu xəzinəyə malik olanlar yaşadıqları müddət ərzində hətta daha sonra da şirin su qaynağı kimi daim ziyarət edilir. Elmin təhsilin çox dəyərli nemət olduğunu kitab adlı xəzinənin hikmətini anlayan ağıllı və bacarıqlı şagirdlərimizdən biri olan Xuduyev Tofiq Elnur oğlu digər şagirdlərdən öz prinsipiallığı ilə seçilənlərdəndir. Bu yazı onun məktəbli tərcümeyi halından bəhs etsə də, ümid edək ki, gələcək saylarımızda onun parlaq taleyi uğurlu həyatından geniş bəhs etmək və layiqli mövqeyini işıqlandırmaq qismət olar.***

Xuduyev Tofiq Elnur oğlu 15 avqust 2009-ci ildə Kürdəmir rayonunda anadan olub. Evin ilk övladı göz nuru olan Tofiq savadlı və bacarıqlı bir ailənin yetirməsidir. Savadlı və bacarıqlı şagirdimiz 2015-ci ildə Kürdəmir rayon 3 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olub.Hazırda 4"a" sinifdə oxuyur.Məktəbə ilk qədəmlərini qoyandan bu günə kimi savadı və çalışqanlığı ilə məktəb rəhbərliyinin müəllimlərinin diqqətini özünə cəlb etmişdir.Heç bir fənlərdə ayrı seçkiliyi etməyi xoşlamayan Tofiq riyaziyyat başda olmaqla bütün fənləri çox sevir və hər birinə ayrı-ayrılıqda məsuliyyətlə hazırlaşır. Sinif müəllimi Könül simasında bütün müəllimlərinə də ayrı-ayrılıqda sevgi və hörməti var. Müəllimlərini cəmiyyət quruculuğunun memarları adlandıran Tofiq bildirib ki , valideynlə bərabər şagirdlərin hər cür şıltaqlığına , əziyyətinə dözmək müəllimlərin üzərinə düşür. Bu yük çox ağır olduğu qədərdə məsuliyyətlidir. Dərslərindən aldığı yüksək uğurlarla kifayətlənməyən Tofiq idmanın yunan-roma güləşi üzrə məşğul olur. Apardığımız kiçik müsahibədə uğurlarından söhbət düşdükdə Tofiq bildirdi ki, ilk uğuru 2017-ci ildə olub. Kürdəmir rayon açıq birinciliyində



yunan-roma güləşi üzrə 2-ci yerə layiq görülmüş və Fəxri Fərmanla təltif edilmişdir. 11 fevral 2017-ci ildə Mingəçevir şəhər "SPARTAK" cəmiyyətinin təşkil etdiyi yunan-roma güləşi üzrə açıq rayon birinciliyində 1-ci yerə layiq görülmüş və diplomla təltif edilmişdir. Artıq öz gələcək yolunu da indidən seçib. O bildirib ki, bütün bu uğurlarıma, bacarığıma görə gələcəkdə idmançı olmaq istəyirəm. Hər kəsin sevimlisi olan Tofiqin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Xuduyev Elnur Tofiq oğlu 1984-cü ildə Laçın rayonunda anadan olub.Orta təhsilli olan Elnur bəy




hazırda Kürdəmir rayonunda Azərpoçtda işləyir.

Anası Xuduyeva Mələk Habil qızı 1988-ci ildə Kürdəmir rayonunda anadan olub. Orta ixtisas təhsilli olan Mələk xanım idarəetmə kollecini bitirib. Hazırda evdar xanımdır.

Tofiqin 1 qardaşı var. Xuduyev Mehdi Elnur oğlu 12 oktyabr 2010-cu ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 3-cü sinifdə oxuyur.

Bir valideyn kimi daim Tofiqin arzu və istəklərini dəstəkləyir məqsədinə çatması üçün əlindən gələni əsirgəmirlər.

Kollektivimiz adından Tofiq balamızı təbrik edir, ona gələcək həyatında uğur və nailiyyətlər diləyirik. Arzu edirik ki, gələcəkdə sayılıb-seçilən idmançılardan olmağını, ölkəmizin adını xarici ölkələrdə hallandırmağı arzu edirik.



# “HAMI BİLİR Kİ, BU ŞEY OLA BİLMƏZ. AMMA BU ŞEYİN OLA BİLMƏDİYİNİ BİLMƏYƏN BİR NƏFƏR TAPILIR VƏ HƏMİN ŞEYİ KƏŞF EDİR”. (ALBERT EYNŞTEYN)

SƏRVAN SƏFƏRLİ



***Təhsil insanın bilik, bacarıq və səriştələr əldə etməsi sahəsində imkanlarını genişləndirir, insan kapitalını formalaşdırır, həyatın keyfiyyətini dəyişir və iqtisadi artımın mənbəyi rolunu oynayır. Müasir təhsil müəssisələri cəmiyyətin mədəni irsinin nəsildən nəslə ötürülməsinə şərait yaradır və insanları onların iqtisadi və sosial statuslarını müəyyən edəcək peşəkar bilik və bacarıqlarla təmin edir. Eyni zamanda təhsil müddətində uşaq və yeniyetmələrdə mənəvi ideallar, davranış stereotipləri və ətraf aləm haqqında rəy və təsəvvürlər formalaşır.***

Jurnalmızın bu sayında haqqında yazacağımız qəhrəmanımız Sərvan Səfərlidir. O , 27 yanvar 2007-ci ildə Bərdə rayonunun Qaradağlı kəndində dünyaya göz açıb. Həyatın mənalı çağı olan təhsil həyatına 2013-cü ildə Kəlbəcər rayon 106 saylı tam orta məktəbin 1-ci sinifinə daxil olaraq başlamışdır. Hazırda həmin məktəbdə 6-cı sinifdə oxuyaraq öz təhsil həyatını davam etdirir. Artıq 6 ildir ki, dərslərini əla qiymətlərlə oxuyan Sərvan sinifin nümunəvi şagirdidir. Demək olar ki, bütün fənlərinə məsuliyyətlə hazırlaşır. Çalışır ki, müəllimlərinin ona olan etimadını doğrultsun. Onun ən sevdiyi fənlər Azərbaycan dili, riyaziyyat, coğrafiya, İngilis dili, Azərbaycan tarixi fənnləridir. Hər bir fənni tez mənimsəmək və sevmək ilk növbədə onu tədris edən müəllimdən asılıdır. Gözəl müəllim, Sahilə müəllim, Kamələ müəllim dərsləri ona sevdirən, onda xüsusi maraq oyadan sevimli müəllimləridir. Artıq gələcək peşəsini seçən Sərvanın arzusu gələcəkdə Polis Akademiyasına daxil olmaqdır. O, polis ixtisası üzrə ixtisaslaşaraq şərəfli bir polis olmaq, xalqına daim xidmət etmək istəyir. Asudə vaxtlarını isə maraqlı kitablar oxumaqla və velosiped sürməklə keçirir. Həyatda idealı Babasıdır. Sərvanın uğurlarına sevinən, onun hər zaman yanında olan ailəsi onunla qürur duyur. Və inanırlar gələcək uğurları bundan da çox olacaq.

Sərvanın ailəsi 5 nəfərdən ibarətdir. Atası Səfərov Xəyyam Vilayət oğlu 1983-cü ildə doğulub, Yaşıllaşdırma idarəsində çalışır. Anası Səfərova Mədinə İbrahim qızı 1984-cü ildə doğulub, hazırda Kəlbəcər rayon 24 saylı



köçkün tam orta məktəbində müəllim olaraq çalışır. Sərvanın Fidan adında bacısı var, Fidan 8-ci sinif şagirdidir. Qardaşı Vilayət isə 2-ci sinif şagirdidir. Onlar da təhsil aldıqları sinfin istedadlı və nümunəvi şagirdləridir.

Kollektivimiz adından Sərvan balamıza uğurlar diləyirik. Ona bol-bol uğur və parlaq gələcək diləyirik. Arzu edirik ki, uğurları ilə daim ailəsinin sevinci, fəxri olsun.

# “BİLDİYİN ŞEYDƏN QORXMA, BİLMƏDİKLƏRİNDƏN QORX”. (ƏBU TURXAN)

## FİDAN SƏFƏRLİ



Səfərli Fidan Xəyyam qızı öz üzərində çalışaraq öz istedadını və bacarığını yaradan, əzmlə dirənən və sonunda az yaşında böyük nailiyyətlər əldə edən bir şagirddir. Ailəsinin və müəllimlərinin dəstəyi ilə müvəffəqiyyətlərinin ardı arası kəsilmirdi. O, 2005-ci ildə iyun ayının 28-də Bərdə rayonunda dünyaya gəlib Fidan. Doğulduğu gündən bəri ailənin ilk övladı olmağın dadını çıxarıb. Amma tərbiyəsi və mədəniyyəti ilə hamının yanında secilməyi bacarıb. 2011-ci ildə bəziləri üçün son zəng çalınanda Fidan üçün hələ ürəyinə sevinc qatan ilk zəng çalınırdı. Həvəslə , başı dik getdiyi sinif otağı, sevgi ilə baxan ilk müəllimi onun hələ də xatirindədir. Kəlbəcər rayonu 106 saylı tam orta məktəbdə başladı onun həyatının uğur dolu illərinin başlanğıcı. Hal-hazırda 8-ci sinifdə oxuyan Fidan sinifdə əlaçıdır. Dərslərini yaxşı qiymətlərlə oxuduğuna görə Fidan bir neçə dəfə məktəb rəhbərliyi tərəfindən “əlaçı şagird” diplomlarıyla təltif olunub. Həm yoldaşları, həm müəllimləri ondan çox razılıq edirlər. Azərbaycan dili, tarix və ingilis dili fənlərini çox sevir Fidan . Lətafət müəllim və Kəmalə müəllim isə onun sevimli müəllimidir. İngilis dilinə böyük həvəsi olan Fidan gələcəkdə ingilis dili müəllimi olmaq arzusundadır. O, şagirdlərin həyatına günəştək işıq saçan müəllim olmaq arzusundadır. O, bu məqsədinə çatmaq üçün çox çalışır, iri addımlarla irləyir.

*Yüksək əqli imkanlara və bacarıqlara malik uşaqlar var, lakin onların dəcəlliyi və inadkarlığı üzündən hamı onları inkar edir, yararsız hesab edir. Bu uşaqlara düzgün yanaşmanı tapıb tərbiyyə etsək, onlar dahi olaraq böyüyərlər. Tərbiyə - uşaqda yeni imkanların, bacarıqların yaradılması deyil, onda mövcud olan imkanların qidalandırılmasıdır.*

4 nəfərlik ailədə doğulub boya-başa çatan Fidan evin ilk və tək qız övladıdır. Qardaşı ilə eyni məktəbdə təhsil olan Fidanın müəllimləri də şagirdinin təlim-tərbiyəsini çox bəyənir. Hər iki bacı-qardaş ailəsinin adına layiq davranırlar. Ata və anasının əziyyətlərini boşa çıxarmamağa çalışır.

Atası Xəyyam bəy 1983-cü ildə anadan olub, Yaşıllaşdırma idarəsində çalışır. Hər 2 övladının təhsil gələcəyi ilə daima maraqlanır , hər bir uğur üçün uşaqlarını daha da motivasiya edirlər. Anası Mədinə xanım 1984-cü ildə doğulub, Kəlbəcər rayon 24 saylı tam orta məktəbdə sinif müəllimi olaraq çalışır . Boş vaxtlarında onların dərsləri ilə maraqlanır, müəllimləri ilə kontakt şəklində olur. İclaslarda övladları haqqında xoş sözlər eşidir. Bu da onu daha çox sevindirir.

Biz də inanırıq ki, Fidan öz arzusuna çatacaq, gələcəyin ən məhşur və uğurlu ,şərəfli müəllim adına layiq müəllimlərindən biri olacaq.

# "HƏR GÜN YENİ BİR İNCİ TAPMAĞIN YOLU ÖZ İÇİNDƏKİ HİKMƏT XƏZİNƏSİNƏ BAŞ VURMAQDIR." (ƏBU TURXAN)

**SALAYEVA NURAY**



***"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz" - bu sözlər Ulu öndər Heydər Əliyevə məxsusdur. Ümummilli liderimiz daim təhsilə qayğı ilə yanaşır, onun əhəmiyyətini vurğulayırdı.***

Məhz Ulu öndərin rəhbərliyi ilə təhsil sistemində islahatların əsasını təşkil edən mühüm sərəncamlar, fərmanlar imzalanmışdır. İnkişaf etmiş dövlətin qurulması üçün birinci amil yüksək təhsil səviyyəsinin olmasını hesab edən ölkə başçısı İlham Əliyev tərəfindən də Azərbaycan təhsilində sistemli islahatlar aparılaraq Ulu öndərin təhsil siyasəti uğurla davam etdirilir. Cənab Prezidentin apardığı məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatı inkişaf etmiş və hər bir sahədə olduğu kimi təhsil sahəsinin də inkişafı üçün təməl olmuşdur. Hazırda təhsilimizin ayrı-ayrı sahələri deyil, bütövlükdə kompleks şəkildə inkişaf edir.

Təhsil sahəsi daim möhtərəm Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Cənab Prezident qeyd edir ki, "Biz inkişaf etmiş ölkələrin təcrübəsini yaxşı bilirik. Və görürük ki, o ölkələr sözün əsl mənasında inkişaf edir ki, orada təhsilin səviyyəsi yüksəkdir. Biz çalışırıq ki, Azərbaycanda bu sahəyə daim diqqət göstərilsin, praktiki tədbirlər görülsün, həm təhsil sisteminin maddi-texniki bazası güclənsin, eyni zamanda


AZƏRBAYCAN RESPUBLİKASI
KÜRDƏMİR RAYON TƏHSİL ŞÖBƏSİ
6 saylı məktəb
TƏRİFNAMƏ
Açıq Qapı günü Azərbaycan dili dərsində xüsusi fərqləndiyinə və məktəbin ictimai işlərində fəal iştirakına görə Salayeva Nuray təltif olunur.
Direktor: ... Sıxaliyeva
M.Y.

və ən önəmlisi təhsilin keyfiyyəti artsın.

Olduqca bacarıqlı və istedadlı şagirdləri özündə birləşdirən jurnalımızın növbəti sayında Salayeva Nuray və onun məktəb həyatı haqqında öyrəndiklərimizi sizinlə bölüşmək istəyirik.

Salayeva Nuray Yaşar qızı


TƏRİFNAMƏ
Salayeva Nuray şəhər 6 saylı tam orta məktəbin şagirdi 9 noyabr Bayraq gününə həsr olunmuş məktəbdaxili rəsm müsabiqəsində III yer tutduğu üçün təltif olunur.

25 oktyabr 2007-ci ildə Kürdəmir rayonunda Kürdəmir rayonunda anadan olub. 2014-cü ildə S.Paşayev adına 6 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda Nuray sözü gedən məktəbin 5"a" sinif şagirdidir. Məktəbə qədəm qoyandan bu günə kimi biliyi savadı ilə yaşıdlarından fərqlənməyi bacarıb. Sinif müəllimi Sədaqət müəllimin, Qətibə müəllimin və Safura müəllimin ən sevimli şagirdlərindən biri olan Nurayın





sevimli fənni Azərbaycan dili və riyaziyyatdır. Məhz müəllimlərinin zəhməti sayəsində Nuray öz uğurlu addımlarını atmaqdadır. Nuray 2017-ci ildə açıq qapı günü Azərbaycan dili dərsində xüsusi fərqləndiyinə və məktəbin ictimai işlərində fəal iştirakına görə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanla təltif edilmişdir. 2017-



2018-ci tədris ilini əla qiymətlərlə başa vurduğuna görə və nümunəvi şagird olduuğuna görə məktəb rəhbərliyi tərəfindən Fəxri Fərmanla təltif edilmişdir. Nurayın yaxşı oxumağı ilə yanaşı yaxşı rəsm çəkmək qabiliyyəti var. Onun vətənpərvərlik, cəmiyyət və təbiətlə bağlı rəsmlərinə baxdıqda onun çox yaradıcı bir şagird olduğunu görmüş olduq. Nuray həmçinin məktəb tərəfindən təşkil olunmuş dəfələrlə rəsm müsabiqəsinin qalibi olub. 9 noyabr bayraq gününə həsr olunmuş rəsm müsabiqəsində 3-cü yerə layiq görülmüş tərifnamə ilə təltif edilmişdir.



Gələcək peşəsini indidən seçən və məqsədinə çatmaq üçün əzmlə çalışan Nurayın arzusu həkim olmaqdır. İnsan sağlamlığını cəmiyyətin sərvəti adlandıran Nuray çalışır ki, gələcəkdə sağlamlığı ilə paxlı problem olan insanlara öz şəfalı əlləri ilə kömək olsun. Azyaşlı qızımız asudə vaxtlarını maraqlı bədii kitablar oxumaqla, musiqiyə qulaq asmaqla və şəkillər çəkməklə keçirir. Anasını çox sevən Nurayın həyatda idealı məhz elə anasıdır.

Evin tək övladı göz nuru olan Nurayın ailəsi onunla hər


DİPLOM

2017/18-ci tədris ilini əla qiymətlərlə başa vurduğuna və məktəbin ictimai işlərində fəal iştirakına görə Kürdəmir şəhəri S.Qasayev adına 6 saylı tam orta məktəbin 4ª sinif şagirdi Salayeva Nuray təltif olunur.

Direktor: Şıxəliyeva E.

zaman qürur duyur, inanırlar ki, Nuray gələcəkdə seçdiyi peşənin sayılıb-seçilən mütəxəssislərindən olacaq. Nurayın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Salayev Yaşar Kamal oğlu 12 dekabr 1971-ci ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsilli olan Yaşar bəy hazırda Rusiya şəhərində xırda ticarətlə məşğul olur. Yaşar bəy xaricdə olmasına baxmayaraq övladlarının təhsili ilə hər gün yaxından maraqlanır.

Anası Salayeva Aynur 24 aprel 1979-cu ildə anadan olub. Orta təhsilli olan Aynur xanım hazırda evdar xanımdır.

Sevənləri və jurnal kollektivi adından Nuray balamıza müvəffəqqiyyətlər diləyirik. Qoy həyatı hər zaman istədiyi və xəyal aləmində qurduğu kimi gerçək və uğurlu olsun.


TƏRİFNAMƏ

Salayeva Nuray
Şəhər 6 saylı tam orta məktəbin şagirdi 9 noyabr Bayraq gününə həsr olunmuş məktəbdaxili rəsm müsabiqəsində III yer tutduğu üçün təltif olunur.

DİPLOM

2017/18-ci tədris ilini əla qiymətlərlə başa vurduğuna və məktəbin ictimai işlərində fəal iştirakına görə Kürdəmir şəhəri S.Qasayev adına 6 saylı tam orta məktəbin 4ª sinif şagirdi Salayeva Nuray təltif olunur.

Direktor: Şıxəliyeva E.

AZƏRBAYCAN RESPUBLİKASI
KÜRDƏMİR RAYON TƏHSİL ŞÖBƏSİ
6 saylı məktəb

TƏRİFNAMƏ

Açıq Qapı günü Azərbaycan dili dərsində xüsusi fərqləndiyinə və məktəbin ictimai işlərində fəal iştirakına görə Salayeva Nuray təltif olunur

Direktor: E. Şıxəliyeva
M.Y.

# Elm adamlarının inkişafı pillə -pillə sənət adamlarının inkişafı isə birdən-birə və ani baş verir

OSMANOV MURAD











***Bildiyimiz kimi insan ruhunu idarə edən əsas qüvvə ağıldır. İnsanı kamilləşdirərək yüksək mərtəbələrə apardığı bəzən mələklərdən də şərəfli və üstün etdiyi üçün ağıl qüvvəsini alimlər məktəblərə xas olan qüvvə də adlandırmışlar. Həzrət Əli buyurur. ”Elm insanın ağlını sübuta yetirər .Elmi olanın ağlı da olar.”Təsadüfü deyil ki ,Peğəmbərimiz ilk ayəyə “Oxu!” sözü ilə başlamışdır.***

*Hədislərdən məlum olur ki, elm insanın həm dünya həm də axirət səadətini təmin edir.İnsan özünü o zaman xoşbəxt hiss edir ki, can atdığı məqsədə yetsin. İnsan həyatının məqsədi isə Allahın əmrlərini layiqincə yerinə yetirmək və ona layiqli canişin olmaqdır. Bunun üçün də insana elm və bilik lazımdır. Elm öyrənən şəxsin ən müqəddəs vəzifəsi öz biliyinə məsuliyyətlə yanaşması onu xeyir və insanpərvər məqsədlərə sərf etməsidir. Öz yolunu elm istiqamətində salan qəhrəmanlarımızdan biri də Osmanov Muraddır.*

*Osmanov Murad Ramil oğlu 11 iyun 2011-ci ildə Kalinqrad şəhərində anadan olub. Özü yad ölkədə doğulsa da ilk təhsil həyatına öz doğma yurdu olan Kürdəmir rayonunda başlayıb.2018-ci ildə Kürdəmir rayon rayonu 5 saylı tam orta məktəbə daxil olub. Hazırda həmin məktəbin 1”a” sinif şagirdidir.Murad*





xüsusi bir qayğı və nəvazişlə böyüdülmüş övladdır.Onun məqsədi dərslərini yaxşı oxuyub ali məktəbə daxil olmaq və savadlı kadr olmaq yönündə irəliləməkdir. Hələ məktəbə yeni qədəm qoyduğuna baxmayaraq müəl-limlərinin sevimlisi olmağı bacarmış kiçik yaşında böyük düşüncələri ilə yaşıdlarından fərqlənmişdi. Ən sevimli fənləri Ana dili və riyaziyyatdır. Ən sevimli müəllimi isə sinif rəhbəri olan Dilşad müəllimdir. Dilşad müəllimin Muradın yaxşı oxumasında, yazmasında əvəzsiz rolu var. O çalışır ki, bütün şagirdləri eyni səviyyədə oxusun. Yaxşı oxumaqla bərabər maraqlı şəkillər çəkmək qabiliyyətinə də malikdir.Gələcək yolunu da indidən seçən Muradın ən böyük arzusu polis olmaqdır. Xalqına sədaqətlə xidmət etmək onların hüquqlarını qorumaq onların müstəqil yaşaması naminə asayişi qorumaq onun ən böyük arzusudur. Muradgilin ailəsi 3 nəfərdən ibarətdir.



Atası Osmanov Ramil 6 yanvar 1979-cü ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda ticarətlə məşğuldur.

Anası Osmanova Vəfa 13 sentyabr 1980-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda evdar xanımdır.

Muradın özündən kiçik bir bacısı var. Osmanova Zeynəb 29 avqust 2013-cü ildə anadan olub.

Biz də jurnalmız adından İbrahim balamıza bolluca uğurlar diləyir və nailiyyətlərinin artmasını arzu edirik. Yolun açıq olsun. Səsin hər zaman yüksəklərdən gəlsin.

# “ELM DÜNYANI ÖYRƏNMƏYƏ KÖMƏK EDİR, AMMA YAXŞI YAŞAYA BİLMƏK AYRI HİKMƏTDİR”. (JAN DE LABRÜYER)

**PƏNAHLI PƏNAH**



Ailənin ilk oğul övladı, ilk göz ağrısı olduğundan ata - anasının daima diqqət mərkəzində olub Pənah. Bacısı da hər zaman qardaşına böyük hörmət və sevgi bəsləyib. Hal- hazırda 3-cü sinif



şagirdi olan Pənaha gələcəkdəki hədəflərini, seçmək istədiyi peşəni soruşduqda maraqlı fikirlər eşitdik ondan. O, bildirdi ki,” bəlkə də hamı ən rahat və asan peşə seçmək istəyir özünə.” Amma Pənah ciddi və məsuliyyətli bir işin altına girərək, ailəsinin onu yetişdirdiyi vətənpərvərlik ruhunu öndə tutaraq polis olmaq arzusundadır. Polislik çox vicdanlı və şərəfli peşədir.” Onun bu yaşda belə ağıllı, qətiyyətli fikirlərindən sonra əmin olduq ki, gələcəyin ən yaxşı və bacarıqlı polislərindən biri ilə qarşı-qarşıya dayanmışıq sanki. Bu peşə onun qəlbinə yol tapıb. Təbii ki Pənah da kiçik yaşına rəğmən bilir ki, çox çalışsa, nəticədə öz istədiyi müvəffəqiyyətə nail olacaq.

Kiçik müsahibimiz 2009-cu ildə Saatlı rayonunda dünyaya gəlib. Gəlişi ilə sevinc, şadlıq uğur gətirib ailəsinə. Ailənin ilk övladı olan Pənah nə qədər dəcəlliyi ilə seçilsə də , tərbiyyəsi və hərəkətlərinin ağıllığı bu dəcəlliyi unutdurur. 2016-cı ildə Mollavaizli kənd ümumi orta məktəbin birinci sinifinə daxil olan Pənah hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Müəllimlərinin hamısı onun haqqında ürəkaçan sözlər deyirlər. Tez bir zamanda məktəbə və dərslərinə adaptasiya olan Pənah dərslərində olduqca bacarıqlıdır. Azərbaycan dili fənnini daha çox sevir. Dərslərində əlaçıdır. Boş vaxtlarında rəsm çəkməyi, kitab oxumağı çox xoşlayır. Bundan başqa Pənah babasını özünə həyatda ideal seçib , onun hərəkətlərini həyatdə etdiklərini artıqlaması ilə etmək niyyətindədir.

Atası Əhsən bəy fərdi təsərrüfatla məşğul olur və maddi-mənəvi hər zaman övladlarının və ailəsinin arxasında dayanır. Anası Nuranə xanım evdar xanım olduğundan onların dərslərinə hər zaman xüsusi vaxt və zaman ayırıb. Müəllimləri ilə hər



daim ünsiyyət saxlayıb, uşaqların dərsləri, davamiyyəti , hərəkətləri barədə ətraflı məlumat alıb. Müəllimləri də Pənah və bacısından daima razılıqlarını bildiriblər. Hər iki bacı və qardaş məqsədləri naminə var gücləri ilə çalışırlar. Məqsədyönlü və irəli görüşlü uşaqlar olduğundan hər zaman diqqət mərkəzində olmağı bacarıblar. Çıxdıqları bu yolda biz də onlara uğur arzu edirik və inanırıq ki, hər zaman adları yüksəklərdə olacaq və uğur pillələrini axsamadan qalxacaqlar.



## OSMANOVA ANARƏ

# “ELM HÜDUDSUZ OKEANDIR, MƏN VƏ BƏZİ DOSTLARIM BU OKEANDAN BİR NEÇƏ DAMLA İÇMƏK FÜRSƏTİNİ ƏLDƏN VERMƏDİK”. (İSAAK NYUTON)

***Müstəqil Azərbaycanımızın amalı durmadan inkişaf etmək və daim irəliyə doğru inamla addımlamaqdır. Bütün sahələrdə olduğu kimi elm sahəsində də daim yeni ideyalar, mütərəqqi fikirlər irəli sürülür və həyata keçirilir. Gələcəyimiz olan uşaqlar isə elmin bütün dərinliklərinə yiyələnməli, gələcəkdə uğurlar əldə etməyə çalışmalıdırlar. Bunun üçün dövlətimizin təlim - tədris müəssisələrində hər cür şərait yaradıb. Məktəblər müasir avadanlıqlarla və texniki vəsaitlərlə təmin olunub. Elmin inkişaf etdiyi bir dövrdə məktəblərdə təhsil alan şagirdlər ali məktəblərə qəbul olmaq üçün var qüvvələri ilə və məsuliyyətlə çalışırlar.***



Jurnalımızın bu sayında haqqında söz açacağımız, elm-bilik qazanmağı qarşısına amal qoymuş istedadlı məktəblilərimizdən biri də Anarə balamızdır. Osmanova



Anarə Anar qızı 2008-ci ildə mart ayının 21-də Yevlax rayon Havarlı kəndində anadan olmuşdur. Dünyaya gəlişindən bəri öz ağlı və şirinliyi ilə ailəsinin, yaxınlarının sevimlisinə çevrilmişdir. Hələ azyaşlı olsa da Anarə daim özündən böyüklərə həvəslə baxmış, onlar kimi məktəbə getməyi arzulamışdır. Nəhayət ki, onun bu arzusu 2014-cü il sentyabr ayının 15-də reallaşır. O, 2014-cü ildə Mingəçevir şəhər Noel Ahəngari adına 13 saylı tam orta məktəbə getməklə təhsil həyatına ilk qədəmlərini qoyub, ilk dəfə əlinə qələm alıb, ana və vətən sözlərini yazmağa başlamışdır. Məktəbə başladığı gündən 5-ci sinifə qədər o, ilk günki kimi məsuliyyət və həvəs hissi ilə yanaşır dərslərinə. Anarə ilə müsahibəmiz zamanı bizə məlum oldu ki, bütün fənnləri əla qiymətlərlə oxuyan bu istedadlı balanın ən sevdiyi fənnlər doğma dilimizin qayda-qanunlarını öyrədən Azərbay-can dili və ingilis dilidir. Anarə həmçinin bütün müəllimlərə hörmətlə yanaşsa da onun qəlbində Məryəm müəllim, Elnarə müəllim və Bibixanım müəllimin yeri tamam ayrıdır. Məhz elə bu müəllimlərin etdikləri fədakarlıqlar ona müəllimlik peşəsini sevdirib. Anarə gələcəkdə universitetə qəbul olmaq və polis kimi çalışmaq arzusundadır. İstedadlı balamız Anarə ilə müsahibəmiz zamanı bizə məlum



oldu ki,onun bir sıra uğurları var. Anarənin həmçinin musiqi və rəsm sahəsində xüsusi istedadı var. Uşaq yaradıcılıq mərkəzində rəssamlıq kursuna gedir. Onun pianino çalmağa xüsusi həvəsi var, dediyinə görə bu onun ruhunu sakitləşdirir. O, bir neçə dəfə tədbirlərdə və yarışlarda da iştirak etmiş müəllim və valideyinlərinin sevgisini qazanıb. Özünü hər sahədə inkişaf etdirən Anarə al-əlvan, rəngarəng rəsmlər çəkərək öz daxili aləminin gözəlliyini ağ vərəq üzərində əks etdirir. Anarə asudə vaxtlarını musiqi dinləməklə keçirir, müxtəlif şəkillər çəkir, pianoda ifa edir.

Anarənin ailəsi 4 nəfərdən ibarətdir. Ailənin kiçik qız övladıdır. Atası Osmanov Anar qızlarını vaxtsız tək qoymaq məcburiyyətində qalıb, rəhmətə gedib. Anası Qurbanova Könül mart ayının 23-də 1983-cü ildə anadan olub, evdar xanımdır. Bacısı Dilarə ilə eyni məktəbdə təhsil alır Anarə. Dilarə 6-cı sinif şagirdidir.

Bizdə öz jurnal kollektivimiz adından Anarəni təbrik edir, bu rəngarəng, çoxşaxəli həyatında uğur və nailiyyətlər diləyirik, arzu edirik ki, qazandığı uğurlar və aldığı təhsil ömür yoluna işıq saçsın. Daim müəllimlərinin və valideynlərinin qüruru, sevinci olsun.



# “ELM SƏRVƏRDƏN DƏ ÜSTÜNDÜR. ÇÜNKİ SƏRVƏTİ SƏN QORUYURSAN ELM İSƏ SƏNİ QORUYUR.” *(HZ.ƏLİ)*

*OSMANOVA HƏNİFƏ*



**İstənilən cəmiyyətdə aparıcı sosial-demoqrafik qrup kimi dəyərləndirilən gənclik tarixən inkişaf prosesində böyük rol oynayıb və ötən zaman bu reallığın daha möhkəm əsaslar üzərində qurulması ilə müşayiət olunub. Məhz bunun nəticəsidir ki, yaşadığımız yeni yüzillikdə gənclərin ümumi tərəqqi prosesinə verdiyi töhfələr artan xətt üzrə inkişaf edir. Getdikcə daha böyük sürətlə qloballaşan müasir dünyamıza nəzər salmaqla bir daha aydın görmək mümkündür ki, ictimai-siyasi, sosial-iqtisadi və digər vacib sahələri əhatə edən hadisələrin mərkəzində yer alan əsas qüvvələr məhz gənclərdir. Bu mənada təsadüfi deyil ki, gənc nəsillə bağlı dəqiq və dərin düşünülmüş siyasətin hazırlanması inkişaf səviyyəsinə görə ön sıralarda olan dövlətlərin əsas diqqət mərkəzində yer alır və Azərbaycan da burada istisnalıq təşkil etmir.**

Danılmaz həqiqətdir ki, dövlət, onun rəhbəri tərəfindən gənclərlə bağlı həyata keçirilən məqsədyönlü siyasət bu təbəqənin nümayəndələrinin ictimai həyata daha çox cəlb olunmasına və müasir Azərbaycanın daha dinamik tərəqqisində oynadıqları rolun artmasına gətirib çıxarır. Azərbaycanın gənclər siyasətini formalaşdıran ümummilli lider Heydər Əliyev hər zaman gənc nəslə böyük qayğı ilə yanaşaraq bu təbəqənin təmsilçilərinin dövrün tələblərinə cavab verən formada inkişafını əməli tədbirlərlə stimullaşdırdı. Bunun konkret təzahürü kimi 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılmasını, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafına diqqətin artırılması, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlərin görülməsi, bir sıra dövlət proqramlarının hazırlanmasını qeyd etmək olar.

Jurnalmızın bu yazısının qəhrəmanı olan Osmanova Hənifə Elnur qızı 11 iyun 2008-ci ildə Kürdəmir rayonunda ziyalı ailəsində anadan olub. O 2015-ci ildə F.Həşimov adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur.. Hazırda isə Hənifə həmin məktəbin 4”c” sinifində təhsil alır. Artıq ibtidai sinifi yekunlaşdırmağına saylı günlər qalıb.Dərslərinə qarşı məsuliyyətli və çalışqan olan Hənifə məktəbə qədəm qoyandan bu günə kimi müəllimlərinin sevgisini və hörmətini qazanmışdır. Bütün fənləri çox sevən , onlara qarşı diqqətlə hazırlaşan Hənifənin ən sevimli fənni riyaziyyat fənnidir. Ən sevimli müəllimi sinif rəhbəri olan Elnarə müəllimdir. Elnarə müəllim peşəkar, savadlı müəllimdir.



Şagirdlərinin savadlı, milli ruhda böyüməsi üçün əlindən gələni edir.İxtisasını dərindən bilən  və onu layiqincə tədris etməyi bacaran Elnarə müəllim bütün müəllimlərə örnəkdir. Hənifə də öz müəllimin yolunu getməyi müəllimlik peşəsinə yiyələnməyi istəyir. Hənifəyə görə müəllim hər şeydən əvvəl  fədakar ,vicdanlı olmalı öz şagirdlərinə yaşamağı, yaratmağı , gələcəyə doğru ruhlandırmağı öyrətməlidir.Daim elmə, öyrənməyə marağı olan Hənifə asudə vaxtlarını maraqlı kitablar oxumaqla keçirir. Ailəsinin sevimlisi olan Hənifənin ailəsi 3 nəfərdən ibarətdir.

Atası Osmanov Elnur Rza oğlu 15 sentyabr 1978-ci ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Bakı Dövlət Universitetinin fizika müəllimliyi fakültəsi bitirib. Hazırda köhnə bazar kənd tam orta məktəbində fizika müəllimi işləyir.

Anası Osmanova İlahə Baləhməd qızı 3 dekabr 1982-ci ildə  Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Azərbaycan Müəllimlər İnistutunun Azərbaycan dili və ədəbiyyat müəllimliyi fakültəsini bitirib. Hazırda F.Həşimov adına 3 saylı tam orta məktəbində Azərbacan dili və ədəbiyyat müəllimi işləyir. Övladlarına gözəl örnək olan İlahə xanım onların ali təhsilli olub yüksək səviyyəli universitetlərdə təhsil alması üçün əlindən gələni edir.

Hənifənin 1 qardaşı var.

Osmanov Nurlan Elnur oğlu  21 avqust 2005-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

Jurnal kollektivimiz adından Hənifəyə dərslərində və gələcək həyatında uğur və  nailiyyətlər diləyirik. Ümidvarıq ki, Hənifə  gələcəyin peşəkar savadlı müəllimlərindən  olacaq. Uğurları  bol olsun sədaları ən yüksək zirvələrdən gəlsin.



**OSMANOV NURLAN**

# ELMDİR CÜMLƏ SƏNƏTİN DƏYƏRİ, ELMSİZ SƏNƏTİN NƏDİR SƏMƏRİ? (ABBAS SƏHƏT)



Belə bir aksioma var ki, hər bir cəmiyyət gəncləri öz mədəniyyəti ruhunda tərbiyə edir.

Bu yazımının qəhrəmanı olan Kürdəmir rayon F.Həşimov adına 3 saylı tam orta məktəbin şagirdi olan Osmanov Nurlan da belə ruhda böyüyən şagirdlərimizdəndir.

Osmanov Nurlan Elnur oğlu 21 avqust 2005-ci ildə Kürdəmir rayonunda anadan olub. 2011-ci ildə məktəbə daxil olan Nurlan hazırda Kürdəmir rayon F.Həşimov adına 3 saylı tam orta məktəbin 8"b" sinif şagirdidir.

Müəllimlərinin və sinif yoldaşlarının sevimlisi olan bu ağıllı balamızın sevimli fənləri Azərbaycan dili, ingilis dili , riyaziyyat və fizikadır. Sevdiyi müəllimlərinin də adını çəkməyi unutmayan Nurlan Aytən müəllim, İlahə müəllim, Rəhilə müəllim, Elmira müəllimi çox sevir və onların əməyinə hər zaman yüksək qiymət verir. Uğurlarından söhbət açdıqda isə Nurlan 18 oktyabr Dövlət müstəqilliyinə həsr olunmuş "Bir kərə yüksələn bayraq bir daha enməz "mövzusunda keçirilən inşa yazı müsabiqəsində 2-ci yerə çıxmış və diplomla təltif edilmişdir. 2018-ci ildə Kürdəmir rayon Təhsil şöbəsinin və Şamaxı hazırlıq mərkəzinin "Dünya Azərbaycanlılarının Həmrəylik günü" münasibətilə Kürdəmir, Ağsu, İsmayıllı, Şamaxı və Qobustan məktəbliləri arasında keçirilən ənənəvi bilik yarışında göstərdiyi yüksək nəticəyə görə Fəxri Fərmanla təltif edilmişdir. 25 dekabr 2018-ci ildə "31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş, Kim? Harada? Nə zaman? Intellektual oyunda 1-ci yerə layiq görülmüş Fəxri Fərmanla təltif edilmişdir. Amerikan konsulluğunun təşkilatçılığı ilə keçirilən bilik yarışında iştirak edib yüksək nəticə əldə etdiyinə görə Sertifikatla təltif edilmişdir.Ən böyük arzusu gələcəkdə kompüter mühəndisi olmaqdır. Kompüter mühəndisi olmaq üçün ilk növbədə kompüterin və onun ayrı -ayrı hissələrinin iş mexanizmini bilməli texniki fənləri dərindən mənimsəməlisən. Nurlana dəstək olan ailəsi onunla qürür duyur ona hər zaman ona arxa-dayaqdılar.

> Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəsillə bağlayır. Gənc nəslin yetişdirilməsi hər bir ölkə üçün ən başlıca məsələdir. Həmçinin, dünyanın istənilən ölkəsində gənclər də sosial-iqtisadi inkişafın aparıcı qüvvələrindən biri, cəmiyyətin islahatları hərəkətə gətirən zümrəsi və yaşlı nəslin davamçısı hesab olunur, gənclər cəmiyyətin ən dinamik zümrəsi olmaqla ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirak edir, ölkədə baş verən bütün proseslərin mərkəzində dayanırlar. Nəsillər dəyişir, ölkələr inkişaf edir. Ancaq ənənələr, milli dəyərlər gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının və ölkənin çiçəklənməsinin rəmzidir.

Atası Osmanov Elnur Rza oğlu 15 sentyabr 1978-ci ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Bakı Dövlət Universitetinin fizika müəllimliyi fakültəsini bitirib. Hazırda Köhnə Bazar kənd tam orta məktəbində fizika müəllimi işləyir.

Anası Osmanova İlahə Baləhməd qızı 3 dekabr 1982-ci ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsillidir. Azərbaycan Müəllimlər İnistutunun Azərbaycan dili və ədəbiyyat müəllimliyi fakültəsini bitirib. Hazırda F.Həşimov adına 3 saylı tam orta məktəbində Azərbacan dili və ədəbiyyat müəllimi işləyir. Övladlarına gözəl örnək olan İlahə xanım onların ali təhsilli olub yüksək səviyyəli universitetlərdə təhsil alması üçün əlindən gələni edir.

Nurlanın 1 bacısı var.

Osmanova Hənifə Elnur qızı 11 iyun 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 4 -cü sinifdə oxuyur.

Nurlan balamıza kollektivimiz adından bu keşməkeşli həyatda



uğur və müvəffəqiyyətlər diləyirik. Uğurları davamlı olsun. Səsi hər zaman ucalardan gəlsin.

# *“Cəmiyyət məntiqin universiallığı sayəsində mümkün olmuşdur.”* *(Tur Xander)*

## NİCAT OSMANLI



***İnsan həyatda müxtəlif situasiyalarla qarşılaşır. Hər bir situasiya isə ona tələb olunan istiqamətdə yanaşmağı tələb edir. Belə yanaşma bacarığı isə insanda təcrübə, bilik və bacarıqları mənimsəmə yolu ilə əldə olunur.***

İnsana yaradıcı təfəkkür onun həyata göz açıb, onu dərk etməyə başladığı andan aşılanmalıdır. Deyilən baxımdan bugünkü şagirdlərdə yaradıcı təfəkkür orta məktəbdə yetişdirilməlidir. Əlbəttə , biz uşaqların yaradıcılıq potensialının inkişaf əsasının məktəbəqədər uşaq müəssisələrində və ailələrdə qoyulması faktını inkar etmirik. Aydındır ki, məktəbəqədər dövrün mənasız itirilməsi, yəni



uşağın yaradıcı təfəkkür qazanmasına cəhd göstərməmək sonralar belə uşaqların oxuma qabiliyyətinə ciddi mənfi təsir göstərir. Buna baxmayaraq orta məktəb şagirdlərdə həm yaradıcı təfəkkürü formalaşdırıb inkişaf etdirməkdə, həm də onlarda tədqiqatçılıq qabiliyyətinin inkişafında xüsusi rol oynayır. Bütün hallarda yaradıcı təfəkkür ilkindir, tədqiqatçılıq qabiliyyəti isə ikincidir. Deməli, tədqiqatçılıq qabiliyyətini inkişaf etdirmək üçün birinci növbədə yaradıcı təfəkkürə malik uşaqları müəyyənləşdirmək lazımdır. Jurnalımızın bu sayında Osmanlı Nicat Soltan oğlu haqqında qısa da olsa öyrəndiklərimizi oxuculara təqdim edirik.

Osmanlı Nicat Soltan oğlu 19 dekabr 2006-cı ildə Kürdəmir rayonunun Atakişili kəndində dünyaya göz açıb. 2012-ci ildə Kürdəmir rayon Famil



Həşimov adına 3 saylı tam orta məktəbin 1-ci sinifinə qədəm qoymaqla təhsil həyatına başlayıb. Hazırda Nicat 6”b”sinifdə oxuyur. Nicat məktəbin ağıllı, çalışqan şagirdlərindən biridir. Ən sevimli fənləri riyaziyyat, fizika, ingilis dilidir. Müəllimləri arasında

ayrı-seçkilik etməyən Nicat bütün müəllimlərini çox sevdiyini, öyrəndiyi biliklərə görə onlara hər zaman minnətdarlığını bildirib. Təkcə dərslərindən aldığı yüksək qiymətlərlə yekunlaşmayan Nicat balamızın şahmat üzrə xüsusi istedadı var. Hətta bir neçə dəfə şahmat oyunlarında iştirak edib və oyunun qalibi olub. 2015-ci ildə Ağcəbədi uşaq gənclər şahmat məktəbinin təşkilatçılığı ilə "Xocalı soyqırımı şəhidlərinin xatirəsinə həsr olunmuş" Respublika şahmat turnirində 3-cü yerə layiq görülüb diplomla təltif edilmişdir. Bu uğurdan sonra o şahmat üzrə xüsusi dərəcə almışdır. Asudə vaxtlarını Nicat yaradıcılıqla məşğul olur. Taxta və kağızdan müxtəlif əşya-lar düzəldir. Bu onun sevimli məşğuliyyətidir. Onun düzəldiyi əl işlərinə baxarkən çox yaradıcı ruha malik olduğunu anlamış olduq. Nicat artıq gələcək peşəsini seçib. O yüksək bal toplamaq və hüquqşünas olmaq arzusundadır. Həmsöhbətimiz bildirdi ki, hüquq mənim üçün çox dəyərlidir. Ölkəmizin beynəlxalq hüquq sistemini, dünya ölkələrinin hüququnu dərindən öyrənmək istəyirəm. Nicatgilin ailəsi 5 nəfərdən ibarətdir.


Soyadı Osmanlı Adı Nicat
Atasının adı Soltan Doğum tarixi 19.12.2006
Yaşayış yeri
Təhsil aldığı yer
İdman təşkilatı Şahmat məktəbi
İdman növü Şahmat
İdman dərəcəsi IV
...ində qeydə alınmışdır
Məhsul şəxsin imzası



Atası Osmanov Soltan Hadur oğlu 4 mart 1979-cu ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsilli olan Soltan bəy Moskva Dövlət Universitetinin Bakı filialının iqtisadiyyat fakültəsini bitirib. Hazırda özəl sahibkardır. Soltan bəy övladlarına nümunə olacaq atadır. O çalışır ki övladları özü kimi ali təhsilli olub peşəkar mütəxəssis olsunlar.

Anası Osmanova Əfsanə Tofiq qızı 8 yanvar 1982-ci ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Nicatın bir bacısı bir qardaşı var:

Bacısı Osmanlı Dəniz Soltan qızı 14 dekabr 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 4-cü sinifdə oxuyur.

Qardaşı Osmanlı Hadur Soltan oğlu 6 avqust 2005-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 8-ci sinif şagirdidir.

Nicat balamıza kollektivimiz adından gələcək həyat yollarında uğur üstündən uğur diləyirik. Daima yüksək zirvələr fəth etsin. Yolu açıq olsun!

# “DAHİLİK ELƏ İŞLƏR GÖRMƏKDİR Kİ ONLARI BAŞQALARINA ÖYRƏTMƏK VƏ BAŞQALARINA ÖYRƏTMƏK MÜMKÜN DEYİL.” (İMMANUEL KANT)

## BALAYEVA LƏMAN



***Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsil alanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsil alanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.***

Son illərdə ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Təhsilin normativ hüquqi bazası təkmilləşdirilmiş, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikası Prezidentinin sərəncamları əsasında geniş tədbirlər həyata keçirilmişdir. Həmin məqsədlə müxtəlif şəhər və rayonlarda 2500-ə yaxın məktəb binası tikilmiş və mövcud təhsil obyektlərində əsaslı təmir-bərpa işləri uğurla aparılmışdır. Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Jurnalmızın bu sayında haqqında danşacağımız şagird də öz çalşqanlığı və istedadı ilə təhsil aldığı məktəbdə yaşıdlarından seçilməyi bacarmış Balayeva Ləmandır.

Balayeva Ləman Azər qızı 13 may 2004-cü ildə Sabirabad rayonunun Qaratəpə kəndində sadə zəhmətkeş ailədə dünyaya göz açıb.Dünyaya gəlişi ilə ailəsinə sevinc gətirən Ləman balamız 2010-cu ildə Qaratəpə kənd Osman Mirzəyev adına tam orta məktəbində öz təhsil həyatına başlayıb. Bu gün Ləman balamızın 15 yaşı var. O, 9-cu sinifdə oxuyur. Məktəbə qədəm qoyandan bu günə kimi öz məsuliyyəti və oxumağa həvəsi ilə müəllim və yoldaşlarının diqqətini cəlb edən Ləmanın ən sevimli fənni Azərbaycan dilidir. Doğma dilimizin vuğunu olan onun qüdrətindən vüqarından ilhamlanan Ləman bildirib ki , ana dilimiz bizim qürurumuz, fəxrimizdir. Onun elmə biliyə yiyələnməsində gələcəyə doğru inamlı addımlamasında Günay müəllim, Vahidə müəllim və Aygün müəllimin əvəzsiz rolu var. Müəllimlərinin əməyini yüksək qiymətləndirən Ləman onlara hər zaman öyrəndiyi biliklərə görə




minnətdardır. Dərslərindən yüksək qiymətlər




almaqla bərabər xüsusi yaradıcılığa malik olmaqla teatr hazırlıqlarında yaxından iştirak edir. Düşünmək və yaratmaq qabiliyyəti hər bir insanın yaradılarkən aldığı ən qiymətli nemətdir. Ləman artıq gələcək peşəsini seçib, o mühəndis olmaq istəyir. Bu peşəni istəməyində məqsəd yüksək ingilis dili,yüksək təhsil ,müasir texnologiyaların tətbiqi , işlə təminat , xarici universitet və şirkətlərlə əlaqələr , həmçinin ölkəmizdə neft sənayesidə peşəkar mühəndislərə olan təlabatın sonsuzluğudur. Ləman yüksək ixtisaslı kadr kimi yetişmək, gələcək işinin peşəkarı olmaq arzusundadır. Asudə vaxtlarını kitab oxumaqla və musiqiyə qulaq asmaqla keçirir.Müəllimlərinin və ailəsinin sevimlisinə çevrilən Ləmanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Balayev Azər Bulud oğlu 1970-ci ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. Ali təhsilli olan Azər bəy Gəncə kənd təsərrüfatı universitetinin kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsini bitirib. Hazırda MKT-nin Sabirabad filialında işləyir.

Anası Balayeva Aynurə Əligülşad qızı 1978-ci ildə Sabirabad rayonunun Qaratəpə kəndində anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Ləmanın 2 bacısı 1 qardaşı var.

Bacıları Balayeva Lamiyə 1999-cu ildə Sabirabad rayonunda anadan olub. Hazırda tələbədir. Bakı Mühəndislik Universitetinin fizika müəllimliyi fakültəsində oxuyur.

Balayeva Səkinə 2000-ci ildə Sabirabad rayonunda anadan olub. Tələbədir. Hazırda Şirvan Dövlət Kollecində oxuyur.

Qardaşı Balayev Fəhmin Azər oğlu 2006-cı ildə Sabirabad rayonunda anadan olub. Hazırda 6-cı sinifdə oxuyur.

"Çağdaş Təhsil" jurnalmızın redaksiyası adından Ləmanı təbrik edir uğur və nailiyyətlərin davamını diləyirik.. Seçdiyi peşənin sayılıb-seçilən mütəxəssislərindən olsun.



# OSMANOVA ANARƏ «ELM HÜDUDSUZ OKEANDIR, MƏN VƏ BƏZİ DOSTLARIM BU OKEANDAN BİR NEÇƏ DAMLA İÇMƏK FÜRSƏTİNİ ƏLDƏN VERMƏDİK». (İSAAK NYUTON)

## OSMANOVA ANARƏ



Müstəqil Azərbaycanımızın amalı durmadan inkişaf etmək və daim irəliyə doğru inamla addımlamaqdır. Bütün sahələrdə olduğu kimi elm sahəsində də daim yeni ideyalar, mütərəqqi fikirlər irəli sürülür və həyata keçirilir. Gələcəyimiz olan uşaqlar isə elmin bütün dərinliklərinə yiyələnməli, gələcəkdə uğurlar əldə etməyə çalışmalıdırlar. Bunun üçün dövlətimizin təlim - tədris müəssisələrində hər cür şərait yaradıb. Məktəblər müasir avadanlıqlarla və texniki vəsaitlərlə təmin olunub. Elmin inkişaf etdiyi bir dövrdə məktəblərdə təhsil alan şagirdlər ali məktəblərə qəbul olmaq üçün var qüvvələri ilə və məsuliyyətlə çalışırlar.



Jurnalımızın bu sayında haqqında söz açacağımız, elm-bilik qazanmağı qarşısına amal qoymuş istedadlı məktəblilərimizdən biri də Anarə balamızdır. Osmanova Anarə Anar qızı 2008-ci ildə mart ayının 21-də Yevlax rayon Havarlı kəndində anadan olmuşdur. Dünyaya gəli-



şindən bəri öz ağlı və şirinliyi ilə ailəsinin, yaxınlarının sevimlisinə çevrilmişdir. Hələ azyaşlı olsa da Anarə daim özündən böyüklərə həvəslə baxmış, onlar kimi məktəbə getməyi arzulamışdır. Nəhayət ki, onun bu arzusu 2014-cü il sentyabr ayının 15-də reallaşır. O, 2014-cü ildə Mingəçevir şəhər Noel Ahəngari adına 13 saylı tam orta məktəbə getməklə təhsil həyatına ilk qədəmlərini qoyub, ilk dəfə əlinə qələm alıb, ana və vətən sözlərini yazmağa başlamışdır. Məktəbə başladığı gündən 5-ci sinifə qədər o, ilk günki kimi məsuliyyət və həvəs hissi ilə yanaşır dərslərinə. Anarə ilə müsahibəmiz zamanı bizə məlum oldu ki, bütün fənnləri əla qiymətlərlə oxuyan bu istedadlı balanın ən sevdiyi fənnlər doğma dilimizin qayda-qanunlarını öyrədən Azərbaycan dili və ingilis dilidir. Anarə həmçinin bütün müəllimlərə hörmətlə yanaşsa da onun qəlbində Məryəm müəllim, Elnarə müəllim və Bibixanım müəllimin yeri tamam ayrıdır. Məhz elə bu müəllimlərin etdikləri fədakarlıqlar ona müəllimlik peşəsini sevdirib. Anarə gələcəkdə universitetə qəbul olmaq və polis kimi çalışmaq arzusundadır. İstedadlı balamız Anarə ilə müsahibəmiz zamanı bizə məlum oldu ki,onun bir sıra uğurları var. Anarənin həmçinin musiqi və rəsm sahəsində xüsusi istedadı var. Uşaq yaradıcılıq mərkəzində rəssamlıq kursuna gedir. Onun pianino çalmağa xüsusi həvəsi var, dediyinə görə bu onun ruhunu sakitləşdirir. O, bir neçə dəfə tədbirlərdə və yarışlarda da iştirak etmiş müəllim və valideyinlərinin sevgisini qazanıb. Özünü hər sahədə inkişaf etdirən Anarə al-əlvan, rəngarəng rəsmlər çəkərək öz daxili aləminin gözəlliyini ağ vərəq üzərində əks etdirir. Anarə asudə vaxtlarını musiqi dinləməklə keçirir, müxtəlif şəkillər çəkir, pianoda ifa edir.

Anarənin ailəsi 4 nəfərdən ibarətdir. Ailənin kiçik qız övladıdır. Atası Osmanov Anar qızlarını vaxtsız tək qoymaq məcburiyyətində qalıb, rəhmətə gedib. Anası Qurbanova Könül mart ayının 23-də 1983-cü ildə anadan olub, evdar xanımdır. Bacısı Dilarə ilə eyni məktəbdə təhsil alır Anarə. Dilarə 6-cı sinif şagirdidir.

Bizdə öz jurnal kollektivimiz adından Anarəni təbrik edir, bu rəngarəng, çoxşaxəli həyatında uğur və nailiyyətlər diləyirik, arzu edirik ki, qazandığı uğurlar və aldığı təhsil ömür yoluna işıq saçsın. Daim müəllimlərinin və valideynlərinin qüruru, sevinci olsun.

MUNİS CƏFƏROV



# MUNİS CƏFƏROV "OXUMAQ İNSANA BİLİK SÖHBƏT HAZIRCAVABLIQ, YAZMAQ VƏRDİŞİ İSƏ DƏQİQLİK AŞILAYIR." (F.BEKON)

***Kitab insanın gənclik ömrünün ən gözəl tövfəsidir. Kitab sabaha baxış, bugünə amalı olan əvəz olunmaz bir varlıqdır. Həyatımızın əvəsiz parçasıdır. Kitab əqidəmizin formalaşmasında həyatımızda mühim rol oynayan ən vacib amildir. Xarakterimizin möhkəmlənməsində fərqli həyatlarla tanış olmağımızı hər bir şəraitdə vəziyyətdən çıxış yolunu göstərir. Həyatın bütün çətinliklərini göstərir.***

Kitab hər anımızda bizə lazım.olan ən vacib varlıqdır. Nəinki gənclik ömrünün, insanın hər dövründə mənəvi qidasıdır. Gənclik ömrünün isə ən gözəl hədiyyəsidir. Kamil insan ola bilmək üçün.

Kitabsız kainat yoxsul olar. Kitabsız insan da yoxsuldur. Hər zaman mənəvi aləmi zəngin olan insanlardan olaq. Kitab xoşbəxtlik yolunu açır. İnsan istədiyi hər şeyə sahib ola bilər. Belə ki, iç dünyasında doldurulmayacaq boşluqlar varsa, bütün dünya önünüzə sərilsə belə, yenə xoşbəxt ola bilməzsiniz. Kitab oxumaq adamı özünə inamı daha da güclü olmağı təlqin edir.

İstənilən birisi ilə söhbət zamanı kitab oxumuş adam öz biliklərini nümayiş etdirməyə çalışır, bu zaman onun düşüncəsində yer alanlar həm də özünə əminliyini daha da artır. Bu ətraf mühitin də səni tanımasına, hörmət etməsinə şərait yaradır ki, adamın özünə münasibətinə kəskin təsir edir. Kitab oxumadan əvvəlki vəziyyətinizlə və sonrakı durumunuz arasında fərq meydana gəlir. Bütün bunlar insanların həyata olan baxışları ilə yanaşı, həm də yaşayışının ayrılmaz parçasına çevrilirsə, o zaman kitab oxumanın dəyəri daha da böyüyür və ucalır. İnsan bilik sayəsində ucalırsa, həyatının mənası da artır. Unutmayaq ki, üzü keçmişdən bu yana bütün bəşəri inkişaf məhz kitab oxumaqla əldə edilmişdir. Çünki, elm, bədii təfəkkür, texniki tərəqqi insanın düşüncə sistemi məhz kitabların sayəsində başa gəlmişdir. Bu gün demək olar ki, hər saatda dünyanın bütün yerlərində elmi kəşflər ortaya çıxır. Daha sonra isə, həmin kəşflər bir andaca dünyanın hər yerində yayılır. Kutab oxuduqca insan köləlikdən də tamamilə uzaqlaşa bilir. Gördüyümüz qanlı savaşların qarşısını məhz kitab oxumaqla almaq daha asandır. Oxumuş millət hər zaman ağıl və zəkanın gücü ilə yaşayar. Munis də belə qənaətdə olan şagirdlərimizdən biridir.

Cəfərov Munis Ramil oğlu 6 sentyabr 2006-cı ildə Sabirabad rayonunun Quruzma kəndində zəhmətkeş sadə ailədə dünyaya göz açıb. 2012-ci ildə Z.Əliyev adına Qruzma kənd tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda 3"a" sinifində oxuyur. Məktəbə qədəm qoyandan bu günə kimi əlaçı olmağı bacaran Munis sinifin fəal şagirdlərindəndir.Ən sevimli fənni coğrafiya və riyaziyyat olan Munis bu fənləri ona sevdirən Əloğlan müəllim və Keyhan müəllimi çox sevir.Müəllimləri ilə müsahibə apararkən onların Munis haqqında müsbət fikirlərə sahib olduğunu öyrənmiş olduq. Demək olar ki, müəllimlərinin ən sevimli şagirdidir. Munisin gələcəkdə arzusu orta məktəbi müvvəffəqqiiyyətlə bitirib polis akademiyasına daxil olmaqdır. Özünündə dediyi kimi gələcəkdə polis olub vətəninə xalqına layiqincə və qürurla xidmət etmək onun ən böyük istəyidir. Onun bu istəyi bu düşüncəsi evində valideynlərinin məktəbdə isə müəllimlərinin düzgün təlim-tərbiyəsindən asılıdır. Uğurlarından söhbət düşdükdə isə Munis bildirdi ki:" dərslərimdən aldığım yüksək qiymətlər mənim ən böyük uğurumdur". Asudə vaxtlarını futbol oynamaqla keçirir. Valideynlərinin sevimlisi olan Munisin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Cəfərov Ramil 1977-ci ildə Sabirabad rayonunun Quruzma kəndində anadan olub. Orta təhsillidir. Hazırda Sabirabad rayonunda mühafizə xidmətində işləyir.

Anası Cəfərova Mehbarə Sabirabad rayonunda anadan olub. Hazırda evdar xanımdır.

Munisin bir bacısı var. Cəfərova Ayna Ramil qızı 2011-c ildə Sabirabad rayonunda anadan olub. Məktəblidir. Hazırda 2-ci sinifdə oxuyur.

Biz də öz növbəmizdə Munis balamıza gələcək həyat yollarında uğurlar diləyirik. Qazandığı nailiyyətlər onu daha yüksək zirvələrə qaldırsın.

## BABAYEVA AYTAC



**KİÇİK UŞAQLAR İNTELLEKTUAL İNSANLARLA ÇOXLU OXŞAR XÜSUSİYYƏTLƏRƏ MALİKDİR. HƏR İKİSİNİN SƏSİ-KÜYÜ BİZİ QICIQLANDIRIR, SUSQUNLUĞU İSƏ ŞÜBHƏLƏNDİRİR. TƏRBİYYƏ - UŞAQDA YENİ İMKANLARIN, BACARIQLARIN Y ARADILMASI DEYİL, ONDA MÖVCUD OLAN İMKANLARIN QİDALANDIRILMASIDIR. (CUZEPPE MADZİNİ).**

Ağlı, tərbiyyəsi, ən əsası intellekti ilə göz önündə olan Aytac kiçik yaşlarından böyük dünya görüşü, fikirləri ilə qarşısındakıları heyrətə gətirməyi bacarırdı. Bizimlə həmsöhbət olduğu zaman az yaşına rəğmən böyük ürəyi olan qızımıza olan sevgimiz , hörmətimiz daha da artdı. Aytacdan gələcək arzuları, hədəfləri barədə soruşduqda təqdirə layiq cavablar aldıq. Belə ki, Aytac gələcəkdə həkim olmaq arzusunda olduğunu dedi. Hər uşaq kimi məktəb vaxtı böyüyəndə kim olmaq istəyirsən sualına verilən adi bir cavab olduğunu düşünürdük ki, Aytacdan eşitdiyimiz sözlər bizi bir anlıq elə olmadığına inandırdı. O bildirdi ki , hər xəstə insan , uşaq , qoca görəndə qəlbində mərhəmət eşqi ilə onların dərdinə dərman olmağı, çarəsizlərə dəva olmaq istəyir. Onun bu ülvi , müqəddəs arzusu inanırıq ki, reallaşacaq. Çünki müsahibimizin qətiyyətinə onunla söhbət edərkən əmin olduq.

Balayeva Aytac Təvəkkül qızı 2008-ci ildə may ayının 6-da Sabirabad rayonunda ailənin ilk və tək övladı olaraq doğulub. Elə uşaqlığından dərin fikirləri ilə yoldaşlarından seçilib. 2014-cü ildə Sabirabad rayonu H.Z.Tağıyev adına 6 saylı tam orta məktəbdə



1-ci sinifə qədəm qoyub. Aytac hal hazırda 5-ci sinif şagirdidir və dərslərinə müntəzəm hazırlaşır .Müəllimləri hər zaman ondan razılıq edirlər. Həm istedadı ,həm də dərsə diqqəti və davamiyyəti çox yaxşı olduğundan iclaslarda haqqında xoş sözlər deyilir. Dərsləri ilə yanaşı rəsm çəkməyi də çox sevir və mütaliə edir. Hekayə kitabları oxuyur. Aytac boş vaxtlarında anasına da ev işlərində kömək edir.

Atası Balayev Təvəkkül 1975-ci ildə fevral ayının 1-də dünyaya gəlib. Tək övladının təhsili və gələcəyi ilə ciddi maraqlanır. Anası Balayeva Ruhiyyə 1978-ci ildə dekabr ayının 31-də anadan olub. Ruhiyyə xanım evdar xanım olduğundan Aytacın dərsləri ilə xüsusi məşğul olir. Valideynləri Aytac ilə daima maraqlanır, müəllimləri ilə hər zaman əlaqə saxlayırlar. Onun gələcək hədəflərində yanında olmağa, dəstəkçi olmağa hazırdırlar.

Biz də öz adımızdan Aytacı təbrik edir, uğurlarının davamlı, həyatının rəngarəng olmasını arzu edirik.

## "HƏR KƏS ELM OXUSA, OXUDUĞUNA ƏMƏL ETSƏ VƏ ALLAH YOLUNDA ÖYRƏTSƏ, MƏLƏKUT ALƏMİNDƏ ƏZƏMƏTLƏ YAD OLUNAR VƏ DEYİLƏR: - ALLAHA GÖRƏ ÖYRƏNDİ, ALLAHA GÖRƏ ƏMƏL ETDİ VƏ ALLAHA GÖRƏ ÖYRƏTDİ" (İMAM SADİQ)

# MUSAXAN MƏMMƏDOV



***Daima yeniliklərə can atan, hər zaman maraqlana və qulaqdan dolma bilgilərlə yox, öyrənərək, araşdıraraq irəli gedənlərin zəmanəsindəyik artıq. Indiki gənclərimiz gələcəyini pillə pillə quraraq irəliləyir. Bünövrəni sağlam götürür və gələcəyini sağlam və sarsılmaz bünövrənin üzərində inşa etmək istəyir.***

***Belə gənclərimizdən biri də Hal-hazırda 8-ci sinif şagirdi olan Musaxandır. Boş vaxtlarını itkiyə verməyən, zamanın hər anının qədrini bilən Musaxan daima yeniliklərlə maraqlanır , ətrafında olub bitənləri araşdırır və onları şərh etməyi sevir. Bu vərdişləri ona məktəb illəri qazandırır.***

2004-cü il oktyabr ayının 20-də Saatlı rayon Mollavaizli kəndində doğulan Musaxan ilk təhsilinə 2012-ci ildə elə həmin rayonun Mollavaizli kənd ümumi orta məktəbində 1-ci sinfinə getməklə başlayıb. Əxlaqlı və mədəni bir ailədə doğulub, boya-başa çatan Musaxan təmsil etdiyi məktəbi də har zaman qürurlandırır. Atası İlqar bəy də tək övladını hər zaman vətənpərvər ruhda böyüdür, onlara dəstək, arxa olur. Musaxan valideynlərinin zəhmətini itirmək istəmir. Bu səbəbdəndir ki, öz üzərində durmadan çalışır. Məktəbdə bütün fənləri və müəllimlərini sevsə də, Ağabəy və Akif müəllimi daha çox sevir. Onlara olan sevgisini və hörmətini sözlərlə ifadə edə bilməyən Musaxan hər zaman qəlbində fərqli bir yerə sahib olacağını bildirir.

Dərslərində olan uğurları ilə yanaşı həm də idmana böyük həvəsi var Musaxanın. Voleybolla məşğul olur. Musaxan voleybolda olan nailiyyətlərinə görə Fəxri Fərmanla təltif olunub. Gələcəyin layiqli, ölkəmizin adını, şanlı bayrağını ucaldan, yüksəklərə qaldıran gənclərimizdən biri olacağı günü səbrsizliklə gözləyirik.

Vətənpərvər, mədəni və tərbiyəsi ilə daima ön planda olan Musaxan hər zaman özünün və ailəsinin başını uca etməyə, onları fərəhləndirməyə çalışır. Həyat qayəsi öz uğurlarına təkbaşına nail olmaq, daima yeniliklərə açıq öyrənən və öyrədən tərəf olmaqdır. Öz uğurlarının memarı olmaq arzusunda olan Musaxan ayaqları üstündə dayana bilən, iradəli və əzmli Azərbaycan gəncidir. Inanırıq ki, əldə edəcəyi uğur və nailiyyətlər daha böyük, əzmi ilə sındıra bilməyəcəyi çətinlik olmayacaq. Həyatında hər çətinliyin üzərində qələbə qazanacağına əminik Musaxanın...

# "İKİ CÜR QARANLIQ VAR: ARTIQ YANIB KÜLƏ DÖNMÜŞLƏRİN QARANLIĞI, BİR DƏ HƏLƏ HEÇ YANMAĞA BAŞLAMAYANLARIN QARANLIĞI! İKİNCİ QARANLIQ ƏSLİNDƏ POTENSİAL İŞIQDIR". (ƏBU TURXAN)

MƏMMƏDOVA VƏFA



*İnkişaf ruhda və düşüncədə olmalıdır; Vətənə, millətə xeyir gətirəcək yeniliklərin təbliği əvəzinə, gələcəyimizi təhdid altına alacaq fikirlərin təbliği həm Vətəni, həm də milləti uçuruma sürükləyər. Və yaxud heç bir tərbiyəvi əhəmiyyəti olmayan istər elmi, istər ictimai, istərsə də bədii kitabların günü-gündən çoxalmasına, yayılmasına icazə verərək dəyərli kitabları, mənbələri kölgədə qoymaq, ya da buna vasitəçi olmaq, millətin savadsızlaşmasına göz yummaq ən böyük cinayət deyilmi?*

***Doğru seçilmiş kitab insana keçmiş haqqında doğru, dəqiq və dolğun məlumat verib, ona oxumağı sevdirər, səhv seçilmiş kitab isə insanı başqa kitablardan da soyudar. Bu baxımdan millətimizin keçmişinin, gələcəyinin mühafizə edilməsində xəzinə rolu oynayan kitablarımızın hazırlanmasına, seçilməsinə (saf-çürük edilməsinə), yayılmasına və qorunmasına ciddi nəzarət etmək bizim hamımızın borcu olmalıdır.***

*Məmmədova Vəfa Rəşad qızı qış günlərinin birində yanvar ayının 18-də 2006-ci ildə Mingəçevir şəhərində dünyaya gəlib. Göz açdığı gündən ailəsində sevgi və hörmət mühitində böyüdülüb. Və gördüyü qayğı və məhəbbət hisslərini qarşısındakı insanlara qəlb qırmadan hörmətlə çatdırmağı bacarıb. Vətənpərvər bir ailədə böyüdülən Vəfaya daima bu hisslər aşılanıb. Ana vətəni sevmək , qorumaq ona bir valideyn qayğısı təsiri bağışlayır sanki. 2012-ci ildə doğulduğu Mingəçevir şəhərin 20 saylı tam orta məktəbində 1-ci sinifə qəbul olub. Məktəbə başladığı ilk gündən yoldaşlarının və müəllimlərinin diqqətini çəkməyi bacarıb. Vəfa da öz növbəsində təhsil aldığı müddət ərzində hər bir müəlliminə dərin hörmət və sevgi bəsləyib. Amma bəzi müəllimlər var ki , onlar bizim həyatımızda mütləq rola sahibdirlər. Vəfanın da sevimli müəllimləri Günel müəllim və Əli müəllimdir. Vəfanın sevərək oxuduğu fənlərə humanitar elmlərdən olan ədəbiyyat, Azərbaycan tarixi daxildir. Ağıllı və istedadlı bala olan Vəfa məktəb dərslərini yaxşı oxuduğu üçün bir neçə dəfə məktəb rəhbərliyi tərəfindən Fəxri Fərmanlarla mükafatlandırılıb. Dərsləri ilə yanaşı Vəfa özünü digər sosial sahələrdə də inkişaf etdirməyə çalışır. Onun musiqi sahəsində,*

toxuculuq sahəsində, inşa yazmaq sahəsində xüsusi istedadı var. O, pianino dərsləri alır, insanların qəlbinə təsir edəcək şəkildə pianino çalmağı bacarır. Incə ruhlu müsahibimizin maraqlı hekayələr yazmaq bacarığı var. Sevdiyi işlərlə məşğul olmaq onun həyat tərzinə çevrilib. Hal-hazırda 7-ci sinif şagirdi olan Vəfa yaşına görə böyük uğurlar qazanıb. Çoxlu sayda diplom, tərifnamə və sertifikatları var. Vəfadan həyatda idealı haqqında soruşarkən çox maraqlı cavab aldıq. Onun həyatdakı idealı dünyaca məhşur rəssam Frida Kahlodur. Gələcəkdə onun kimi hər kəs tərəfindən sevilib, taqdir olunmaq , həmçinin onun kimi məqsədli və güclü olub, öz ayaqları üstündə durmaq onun ən böyük arzusudur. Özü kiçik olmasına baxmayaraq Vəfanın böyük arzuları var. O, hüquq sahəsi üzrə ali təhsil alıb, insanları ədalət qarşısında təmsil edən şərəfli hüquqşünas olmaq arzusundadır. Bu yolda onun dəstəkçiləri hər zaman onun arxadayağı olan valideynləridir. Biz də inanırıq ki, əzmkar və iradəli Vəfa öz məqsədinə çatacaq.








5 nəfərlik bir ailədə böyüyən Vəfa evin sonbeşiyidir.

Atası Məmmədov Rəşad Fariz oğlu 1978-ci ildə iyulun 12-də anadan olub. O, ali təhsillidir, hazırda dərman şirkətində bölgə müdürü vəzifəsində çalışır. O, gözəl və mehriban insandır. Anası Məmmədova Mətanət Novquz qızı 1978-ci il dekabrın 27-də doğulub. O, gözəllik salonu işlədir. Hər iki valideyn övladlarını diqqətlə, qayğı ilə əhatə edib, böyüdüblər. Vəfanın böyük qardaşı Məmmədov Kamran 1997-ci il noyabr ayının 3-də dünyaya gəlib. Hal hazırda Milli Aviasiya Akademiyasında təhsil alır, Məmmədov Fariz 1998-ci il oktyabr ayının 29-da doğulub. Ailəsinin saysız hesabsız arzuları isə övladlarını yüksək zirvələrdə görmək, fəxarətlə və qürurla onların nailiyyətlərinə şahidlik etmək istəyir. Biz də inanırıq və ümid edirik ki ,rəngarəng istedadları olan Vəfa və qardaşları hər zaman valideynlərini başını uca edəcək, ümidlərini doğruldacaq.

*Elmi biliyin maddi qüvvəyə çevrilməsi təbiətlə mübarizədə insanı daha güclü edir. Lakin insanın maddi gücü-qüdrəti artdıqca bu gücü düzgün yönəldə bilmək üçün onun mənəvi kamillik səviyyəsi də yüksəlməlidir. Zira elm əhli olmaq, hələ kamal əhli olmaq deyil. Kamalın qələbəsi üçün yüksək elmi-texniki səviyyə ona uyğun gələn yüksək mənəvi-əxlaqi səviyyə ilə tamamlanmalıdır.*

# MƏMMƏDOVA RƏBİYYƏ



"HAFİZƏ İKİ CÜR OLUR: HADİSƏLƏRİN AYRI-AYRILIQDA YADDA SAXLANMASI VƏ ANCAQ QAYDALARIN, ÜMUMİ PRİNSİPLƏRİN YADDA SAXLANMASI. İKİNCİ OLANDA BİRİNCİYƏ EHTİYAC QALMIR".

(ƏBU TURXAN)

***Məmmədova Rəbiyyə Rasim qızı 17 dekabr 2008-ci ildə Mingəçevir şəhərində anadan olub. 2015-ci ildə Mingəçevir şəhər 20 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olub.***

Hazırda isə həmin məktəbin 4-cü sinfində təhsilini davam etdirir. O, çox mehriban və mülayim bir qızdır. Rəbiyyə məktəbdə ən sevdiyi müəəlimi olaraq Nuranə müəllimin adını çəkir, öz müəlliminin şagirdi olması ilə qürur



duyur. Onun sayəsində sinfin yaxşı oxuyanlar sırasında olduğunu da əlavə etdi. Səmimi aurası və xoş münasibətinə görə fərqləndirdiyi müəllimi də onunla qürur duyur. O, bütün müəllim və müəllimləri-ni onlara çəkdiyi əziyyətə görə dəyərləndirir və əməyinin qiyməti kimi onlara layiqli yetirmə olmağa çalışırlar. Səbəbi həm bu fənnlərə olan sevgisi və müəllimlərinin keyfiyyətli tədrisi ilə bağlıdır. O deyir ki, yaxşı ki, onun belə mehriban, savadlı müəllimləri var. Çünki Rəbiyyə yaxşı oxumağının nəticəsi kimi "Fərqlənmə Diplom"u qazanıb. O, Kür kursunda keçirilmiş sınaqlarda iştirak etmiş, yüksək bal toplamışdır. Onun ən sevdiyi, həvəslə oxuduğu fənn həyat bilgisi və riyaziyyatdır. Özü kiçik olsa da Rəbiyyənin arzuları böyükdür. O, orta məktəbi uğurla başa vurub Azərbaycan Tibb Universitetinə girmək arzusundadır. O, həkim olaraq öz savadı və şəfalı əlləri ilə xəstə insanların fiziki sağlamlığının qayğısına qalmaq istəyir. Rəbiyyə dərk edir ki, məqsədinə çatmaq üçün çox çalışmalıdır. Elə daim ona dəstək verən, arzularını qanadlandıran, yaşam səbəbi olan ailəsi də Rəbiyyə ilə qürur duyur və gələcəyini parlaq görmək istəyir.Biz də inanırıq ki, əgər bu iradə ilə davam etsə arzusuna çatacaq.

Rəbiyyənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Rasim Əli oğludur. O, 1980-ci ildə avqust ayının 19-da doğulub, ev təmiri ilə məşğul olmaqla ailəsini dolandırır. Anası Hüseynova Gülnarə Hüseyn qızı 24 yanvar 1983-cü ildə anadan olub. O, evdar xanımdır. Övladlarının təlim-tərbiyəsi ilə məşğul olur. Rəbiyyə üçün həyatda ən ideal insan məhz onların qayğısını və zəhmətini çəkən doğma anasıdır. Qardaşı Məmmədov Asim 2006-cı ildə avqust ayının 20-də dünyaya gəlib, idmançıdır. O, idmanın güləş növü ilə məşğul olur. Klublararası yarışlarda iştirak edərək, müxtəlif yerlər tutub. O, qardaşı ilə də qürur duyur.

Elm-təhsil böyük mübarizə, əzmkarlıq tələb edir ki, gərək məqsədli olub yorulmadan bu yolda istiqamətlənəsən. Jurnalımız vasitəsi ilə bizdə Rəbiyyəyə dərslərində və gələcək həyatında müvəffəqiyyətlər arzulayırıq.

Ümidvarıq ki, Rəbiyyə gələcəyin ən peşəkar həkimi olacaq. Uğurların bol, sədan ən yüksək zirvələrdən gəlsin!

# RƏVAN MƏMMƏDLİ



## BİLİYİN AĞASI OLMAQ ÜÇÜN ZƏHMƏTİN KÖLƏSİ OLMAQ LAZIMDIR.(Onore de Balzak)

Müasir dövrdə məktəb uşaqların təhsil almasında əsas rol oynayır.Hətta məktəbin illərlə yetişdirdiyi gənc nəsillərin məxsus olduğu dövlətin əsas sərvətidir desək yanılmarıq. Məktəb insanın intellektual dünyasını zənginləşdirmək onu daha məlumatlı bilikli etmək üçün və maddi imkanlarını artırmaq üçün əsas təhsil ocağıdır. Jurnalmızın bu sayının qəhrəmanı olan Rəvan Cavad kənd tam orta məktəbinin şagirdidir.

Məmmədli Rəvan Əhməd oğlu 11 avqust 2005-ci ildə Sabirabad rayonunun Cavad kəndində anadan olub. 2011-ci ildə T.Məmmədov adına Cavad kənd tam orta məktəbinə daxil olaraq öz təhsil həyatına başlamışdır. Hazırda 8-ci sinifdə oxuyur.Ən sevimli fənləri Azərbaycan dili və ədəbiyyat olan Rəvan sinifin əlaçı şagirdidir. Onun belə fəal, çalışqan olması müəllimlərinin zəhmətidir. Rəvan yaxşı oxuduğuna nümunəvi şagird olduğuna görə məktəb rəhbərliyi tərəfindən bir neçə dəfə tərifnamə və diplomlarla təltif edilmişdir. Rəvan gələcəkdə polis olmaq istəyir. O, Polis Akademiyasını uğurla bitirməyi vicdanlı şərəfli polis olub xalqına ,vətəninə layiqli şəkildə xidmət etmək istəyir. Həyatda idealı babası Əhməd bəydir. Əhməd bəyin böyüklüyünü torpağa, yurda bağlılığında, halal zəhmətində Vətən üçün xalq üçün faydalı övladlar, nəvələr böyüdüb yetişdirməsində görmüş olduq. Rəvan gələcəkdə babası kimi nurani zəhmətsevər bir şəxs olmaq istəyir.

Atası Məmmədov Seymur Əhməd oğlu 1976-cı ildə Sabirabad rayonunda anadan olub. Orta təhsillidir. Hazırda qəssab işləyir.

Anası Məmmədova Afət Əfqan qızı 1981-ci ildə Sabirabad rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Hər bir valideyn kimi Seymur bəy və Afət xanım övladlarının gələcəyinin parlaq olması onların gələcəkdə ən yaxşı universitetlərdə oxumaları üçün əlindən gələni edirlər.

Rəvanın bir bacısı var. Məmmədli Çinarə Seymur qızı 20 iyul 2007-ci ildə Sabirabad rayonun Cavad kəndində anadan olub. Hazırda 7-ci sinifdə oxuyur. O, da qardaşı kimi sinifin fəal şagirdlərindən biridir.

Rəvan həyatsevər bir uşaqdır. Onun balaca dünyasında özünəməxsus bir məsumluq , bir saflıq açıqaydın hiss olunur. Kollektivimiz adından Rəvan balamıza sonsuz müvvəffəqiyyətlər arzulayırıq.Həyat yolu aydın və mübarizə dolu uğurlarla zəngin keçsin.

Həyatımız iki mərhələli bir oyuna bənzəyir. Birinci mərhələ məktəb həyatı, ikinci mərhələ isə həyat məktəbi dövrüdür. Ortalama insan ömrünün 70 il sayıldığını nəzərə alsaq ömrümüzün dörddə bir hissəsini məktəb həyatında, dörddə üçünü həyat məktəbində keçiririk. Məktəb həyatı bitincə həyat məktəbi başlayır.Məktəb həyatında müvəffəqiyyət əldə etmək üçün bir-birindən fərqli sahələrdə üstün olmamız kifayətdir. Halbuki, həyat məktəbində bu belə deyil. Orada ancaq bir sahə üzrə yaxşı olmaq yetərlidir.



MƏMMƏDLİ ÇİNARƏ

Müasir dünyada təhsil cəmiyyətin uğurlu inki-

*Müasir dünyada təhsil cəmiyyətin uğurlu inkişafının əsas resursudur. Əgər dövlət təhsilə nə qədər çox vəsait ayırarsa ölkənin potensialı və çoxcəhətli prespektivi də bir o qədər yüksək olar.Gələcəkdə yüksək təhsilli insanlara daha çox tələbat var. Məhz onlar müasir innovasiya iqtisadiyyatına və elminə uğurla cəlb olunmalı ölkənin rifahı naminə öz bilik və bacarıqlarını tətbiq etməklə unikal məhsul və texnologiyalar yaratmalıdırlar. Bu da öz növbəsində müəllimlərin səyi nəticəsində mümkün olur.*

# Biliyə üç yol aparır :ən asanı -təqlid, ən çətini- təcrübə, ən şərəflisi-düşüncədir. (Konfutsi)

***Bu gün orta məktəb müəllimləri böyüməkdə olan nəslin təşəkkülündə və inkişafında mühüm rol oynayır.Məhz məktəb müəllimləri öz şagirdlərində istedad və qabiliyyəti aşkar edə və onları inkişaf etdirməyə kömək göstərirlər. Növbəti istedadlı və çalışqan şagirdlərimizdən biri də Məmmədli Çinarə Seymur qızıdır.***

*Məmmədli Çinarə Seymur qızı 20 iyul 2007-ci ildə Sabirabad rayonunun Cavad kəndində anadan olub. 2013-cü ildə T.Məmmədov adına Cavad kənd tam orta məktəbinin 1-ci sinifinə daxil olaraq təhsil həyatına başlamışdır.Hazırda həmin məktəbin 6-cı sinifində oxuyur. Sinfin nümunəvi şagirdlərindən olan Çinarənin ən sevimli fənləri Azərbaycan dili rus dili və riyaziyyatdır. Sevimli və hörmət bəslədiyi müəllimi isə Gülnarə müəllimdir. Gözəl intonasiyaya səlist nitqə malik olan Çinarə məktəb tədbirlərində hər zaman aktiv iştirak edir.*

*O çox gözəl natiqlik qabiliyyətinə malikdir.Yüksək səviyyədə aparıcılıq qabiliyyətinə malik olduğu üçün məktəbdə keçirilən əlamətdar günlərdə şeirlər oxuyur. Asudə vaxtlarını dərs oxumaqla şəkil çəkməklə və dostları ilə oynamaqla keçirir. Çinarənin gələcəkdə ən böyük arzusu savadlı və peşəkar müəllim olmaqdır. O gələcək nəsillərə öz töhfəsini vermək istəyir.Müəllimlik peşəsini yüksək qiymətləndirən Çinarə bildirib ki, “müəllimlər cəmiyyətin qurucusu bütün peşələrin şahıdır. Çünki dünyanı fəth edənlər, tarixçilər belə müəllimin yetirmələridir. Peşəkar müəllim olmaqdan ötrü isə hər şeydən öncə dərin biliklərə, sağlam psixologiyaya , güclü səbrə sahib olmalısan.İnanıram ki , məndə gələcəkdə bu şərəfli işi layiqincə yerinə yetirəcəyim.” Çinarənin həyatda idealı babasıdır. Babası çox zəhmətkeş insandır, daim ailəsinin firavan xoş yaşaması üçün əlindən gələni edir.Çinarənin uğurlarına hər zaman yanında olan ailəsi onun ən böyük dəstəkçiləridir. Çinarənin ailəsi 4 nəfərdən ibarətdir.*

*Atası Məmmədov Seymur Əhməd oğlu 1976-cı ildə Sabirabad rayonunun Cavad kəndində anadan olub. Hazırda qəssabçılıqla məşğul olur.*

*Anası Məmmədova Əfqan qızı 1981-ci ildə Sabirabad rayonunda anadan olub. Hazırda evdar xanımdır.*

*Qardaşı Məmmədli Rəvan Seymur qızı 11 avqust 2005-ci ildə Sabirabad rayonunda anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.*

*Biz də redaksiyamız adından Çinarə balamıza müvəffəqiyyətlər arzulayırıq.Uğurları ilə hər zaman ailəsinin müəllimlərinin fəxri olsun.*

# "BÜTÜN İNSANLARIN MƏNŞƏYİ EYNİDİR:ONLARI ANCAQ BİLİK FƏRQLƏNDİRİR". (BALASAQUNLU YUSİF)

*CAVİDAN MƏMMƏDLİ*



***Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasətinin əsas məqsədi yeni nəslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam yetişməsini, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsini təmin edib. Bu gün isə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasi xətt bu sahənin inkişafı üçün yeni imkanlar yaradır.***

Xüsusilə son 12 ildə gənclərin hərtərəfli inkişafı üçün tutulan strategiya Azərbaycanın dövlət maraqlarının qorunması istiqamətində gənclərin aktiv fəaliyyətinə stimul verir. Xüsusilə Dağlıq Qarabağ münaqişəsinin dinc yolla həlli yönündə xarici ölkələrin ali məktəblərində azərbaycanlı tələbələrin həyata keçirdikləri fəaliyyələrə göstərilən dövlət dəstəyi öz müsbət nəticələrini göstərir. Görülən işlərin dünya və Azərbaycan mediasının gündəminə gətirilməsi də gənclərin fəaliyyətinə təkan verir. Dövlətin məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə, malik gənclər formalaşır. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində




mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb. Hər il olduğu kimi, ötən ildə də gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin adını yüksəklərə daşıyırlar. Keçən illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi gənclər siyasəti bu gün özünü ən yaxşı tərəfdən göstərir. Oxumağı sevən elmə



biliyə bağlı olan növbəti istedadlı şagirdlərimizdən biri də  Məmmədli Cavidan Ruslan  oğludur.

Məmmədli Cavidan Ruslan oğlu  29 avqust 2007-ci ildə Göyçay rayonunda anadan olub. 2013-cü ildə Göyçay rayonu Z.Bünyadov adına 3 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoyub. Hazırda həmin məktəbdə 6"j" sinifdə oxuyur. Məktəbə qədəm qoyandan bu günə kimi çalşqanlığı ilə məktəb rəhbərliyinin hər zaman diqqət mərkəzində olmuşdur. Cavidan hər zaman dərslərinə qarşı məsuliyyətlə hazırlaşır.





Ən sevimli fənləri Azərbaycan dili ingilis dili tarixdir.Bütün müəllimləri sevməsinə rəğmən ən sevdiyi müəllimləri Aytəkin Nuriyyə Nüranə Rəna adlı müəllimlərdir. Cavidan biliyini möhkəmləndirmək və daha da təkmilləşdirmək üçün hər dəfə  Xəzər kurslarını təşkil etdiyi  sınaq imtahanlarında  iştirak edir və yüksək nəticələr əldə edir. Gələcəkdə ən böyük arzusu şöbə rəisi olmaqdır. Cavidan asudə vaxtlarını musiqiyə qulaq asmaqla,  oyunlar oynamaqla, youtubdan maraqlı vidyolara baxmaqla keçirir. Həyatda idealı daysıdır.Cavidanın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Məmmədov Ruslan Cavid oğlu 29 yanvar 1983-cü ildə Göyçay rayonunda anadan olub. Ali təhsillidir. Neft Akademiyasını bitirib. Hazırda Göyçay rayon işıq idarəsində işləyir.

Anası Məmmədova Leyla Nüsrət qızı 7 fevral 1986-cı ildə       Göyçay rayonunda anadan olub. Orta ixtisas təhsillidir. Hazırda  Göyçay rayon 4 nömrəli bağçada müəllim işləyir.

Qardaşı Məmmədli Yusif Ruslan oğlu 2013-cü ildə Göyçay rayounda anadan olub. Məktəbəqədər hazırlıq kursuna gedir.

Kollektivimiz adından Cavidana gələcək həyal yollarında uğurlar arzu edirik. Səsi ali məktəblərdən gəlsin. Uğurları ilə ailəsinin başını hər zaman uca eləsin.

# ATA-ANANIN MEHRİBAN MÜNASİBƏTİ ÖVLAD ÜÇÜN ƏN YAXŞI TƏRBİYƏDİR. (DEMOKRİT)

## MƏMMƏDLİ ƏLİ





***Insan qarşısında səlis fikrini ifadə edə bilən, ağıllı və məntiqli uşaqlarla həmsöhbət olarkən daha maraqlı və gözəl məqalələr ortaya çıxır. Bu günki həmsöhbətimiz, haqqında danışacağımız gələcəyin Gömrük işçilərindən biri olmaq arzusunda olan, gənclik çağlarının başlanğıcında özünü və fikirlərini som dərəcə məntiqli ifadə edən Əlidir. Artıq hədəfləri və məqədləri bəlli olan, nə istədiyini bilən, önündə çəkdiyi yolu uğurla addımlayan uşaqlardan biridir müsahibimiz. Gəlin birlikdə tanıyaq bizim çılğın, hər məqsədində həvəsli olan Əlini.***

*Məmmədli Əli Elçin oğlu 2005-ci ildə aprel ayının 5-də "Nar Festivalı" ilə ölkəyə səs salan gözəl Göyçay şəhərində dünyaya gözlərini açır. Ailəsinin tək övladı, ata-anasının ümid bəslədiyi sevimli oğlu, nənəsinin baladan şirin nəvəsi Əli ağlı, fikirləri , danışığı ilə bir çox yaşıdlarına nümunə olmalıdır. Həyatdakı hədəfləri bir ox kimi tam mərkəzi göstərir. Qətiyyətlə və inamla öz istəklərinə doğru irəliləyir Əli. Məktəbə 2011-ci ildə elə doğulub boya-başa çatdığı Göyçay rayonunda Kürdəmiş kənd tam orta məktəbində 1-ci sinfə qədəm qoyur. Hal-hazırda 8-ci sinifdə oxuyan Əli 5 fəndən hazırlıqlara gedir. Təfəkkür Tədris Mərkəzində hazırlıqlarını davam etdirir. Ən çox sevdiyi fənn azərbaycan-dilidir. 8-ci sinifdə oxumağına baxmayaraq Əli 9-cu*





*siniflər üzrə təşkil olunmuş imtahanlarda iştirak edir və uğur qazanır. Sınaq imtahanlarında tez-tez iştirak edir . Bütün müəllimlərinə hörməti və sevgisi var. Amma riyaziyyat müəllimi Aygün müəllim, Kəmalə müəllim və ingilis -dili müəllimi Leyla müəllimi xüsusilə çox sevir. Müəllimləri də daima Əlidən razılıqlarını bildiriblər.*

*Söhbətimiz zamanı məlum oldu ki, Əli 2-ci ixtisas qrupuna hazırlaşır və hədəfi tam Gömrük işi ixtisasıdır. Dərslərində olan uğurları ilə yanaşı ,həmçinin, idmana da xüsusi marağı var Əlinin. Dərsləri ilə paralel olaraq , həm də idmanla məşğul olur. Ən çox sevdiyi UFC - idman növüdür.*

*Saymaqla bitməyən arzu-istəkləri, maraq dairəsi var Əlinin. Boş vaxtlarında maraqlı kitablar oxuyur. Mütaliə etməklə nitq qabiliyyətini də təkmilləşdirir.*

*4 nəfərlik bir ailədə böyüyüb Əli. Ata-anası və nənəsi ilə daima sevgi, qayğı mühitində boya-başa çatıb. Atası Məmmədov Elçin İsa oğlu 1969-cu ildə noyabr ayının 9-da dünyaya gəlib. Tək övladının ən böyük dəstəkçisi, uğulu ailə başçısı olan Elçin bəy Əlinin uğur qazanması üçün əlindən gələni edir ata olaraq. Anası Məmmədova Bahar Firuddin qızı 1974-cü ildə qadınlar günündə 8-martda uğurlu və qətiyyətli qadın, əzmli və sevilən müəllimə kimi doğulub . Bahar xanım müəllim vəzifəsində çalışdığından Əlinin dərsləri ilə diqqətlə və həvəslə məşğul olub hər zaman. Nənəsi İsmət xanım isə nəvə baladan da şirindir deyərək nəvəsini əsl ailə və sevgi ortamında böyütməyə kömək edib. Valideyn olaraq ən böyük arzuları övladlarını yüksək pillələrdə görmək, ali təhsil alıb uğurlu bir insan, cəmiyyət üçün vacib bir adam olmağını istəyirlər. Əli də valideynlərinin istək və arzularını görüb onları hər zaman fərəhləndirmək istəyir. Həyatdakı idealı elə valideynləri olan Əli məqsədləri və hədəflərinə doğru addımlayır.*

*Biz də redaksiyamız adından uğur arzulayır, gələcək xəyallarının rəngarəng və işıqlı olmağını ümid edirik.*



# “ELMİN HÜDUDLARI ÜFÜQÜ XATIRLADIR: NƏ QƏDƏR ÇOX YAXINLAŞIRSANSA, O QƏDƏR ÇOX UZAĞA ÇƏKİLİR”. (PYER BÜAST)

*AXUNDOVA SEYİDNİSƏ*



**“ Həkim peşəsi olduqca məsuliyyətli və çətindir. Bu qədim sənəti seçən insan daim fövqəladə vəziyyətlərə hazır olmalı və insanlara yardım etmək hissindən həzz almalıdır. Əlbəttə ki, bu geniş ruhiyyə və insanlığa dərin məhəbbət tələb edir. Həyat üçün məsuliyyət daşımağa hazır olmaq lazımdır. Mənin ən böyük arzularımdan biri, həkim sənətinə yiyələnmək, onun sirlərini bilmək və doğma respublikamızın səhiyyəsinə öz töhfəmi verməkdir.” - deyə fikirlərini bizimlə bölüşdü Seyidnisə . Kiçik qəlbində bu amalla yaşayıb hər zaman. Həkim olacaq , vicdanla xəstələrinin sağlamlığının keşiyini çəkəcək.**

Bu gün haqqında danışacağımız müsahibimiz Axundova Seyidnisə Mirdaməd qızı 2007-ci ildə isti yay günlərindən birində iyul ayının 11-də Neftçala rayonunda dünyaya gözlərini açıb. Evin sonbeşiyi, 4 qızından ən kiçiyi olan Seyidnisə daima xoşxasiyyəti, sevimliliyi ilə hamının qəlbinə girməyi bacarıb. Ailəsinin diqqət və qayğısı əhatəsində sevgi və hörmət mühitindən böyüyüb qızımız. Ailəsindən gördüyü münasibəti ətrafında yüksək formada göstərib. Böyük bacılarının ali məktəbə qəbul olduğunu, təhsil alıb uğur və nailiyyət dolu nəticələr göstərdiyini gördükcə Seyidnisə də həvəslənib, məktəbə hazırlaşırdı. Nəhayət ki , 2013-cü ildə Seyidnisə məktəb qapısından ilk addımını atdı.

Neftçala rayonu Mirqurbanlı kəndində yerləşən T.İsmayılov adına tam orta məktəbdə 1-ci sinifə qədəm qoyur. Hal-hazırda həmin məktəbin 6-cı sinifində təhsil alan Seyidnisə qızımız dərslərinə ilk günki kimi həvəs və maraqla hazırlaşır. Dərslərində olan uğurları və nailiyyətləri





ilə adını əlaçılar siyahısına yazdırmağı bacarır. Biologiya və coğrafiya fənlərini çox sevən qızımızın sevimli müəllimləri isə Aynurə müəllim və Əsli müəllimdir. Dərslərinə vaxt ayırdığı qədər istirahət günlərini də səmərəli istifadə edir. Boş vaxtlarında rəsm çəkməklə zehnini dincəldir. Seyidnisə həmçinin internetdən yeni məlumatlar araşdırmağı sevir.



6 nəfərlik geniş bir ailədə böyüyən Seyidnisə bacıları , ana-atası ilə hər zaman yaxşı vaxt keçirib. Bacılarının oxumağını gördükdə qızımız da ilhamlanıb dərslərinə 4 əllə sarılır. Atası Axundov Mirdaməd 1970-ci ildə may ayının 15-də dünyaya gəlib. Hal-hazırda Neft Daşlarında sürücü vəzifəsində çalışmaqla övladlarına hər zaman dəstək olur. Anası Axundova Gülzar 1975-ci ildə may ayının 13-də anadan olub. Evdar qadın olan Gülzar xanım Seyidnisənin dərsləri ilə diqqətlə məşğul olur. 4 qız övladını ağıl və tərbiyə ilə boya- başa çatdıran valideynlər onların uğurlarına daima sevinir. Seyidnisənin 3 bacısı var. Böyük bacısı Lətafət Azərbaycan Dövlət İqtisad universitetini bitirib. Simarət isə Azərbaycan Memarlıq və İnşaat universitetində 4-cü kursda təhsil alır. Digər bacısı Mirşərəf isə modelyerlik üzrə orta-ixtisas təhsili bitirib. Seyidnisə də bacılarının yolunu gedib, ağ xalatlıların siyahısına qoşulmaq istəyir.

Biz də redaksiyamız adından ailəsinin gözəl qızına uğur arzulayır, nailiyyətlərinin davamlı olmağını ümid edirik.

# GÜCLÜ ORDUNUN QORXMAZ ƏSGƏRİ...



## *ANAR NƏSİROV*

*" Həyatımızın mühüm sahəsi olan məktəb , müəllim və şagirdlər haqqında nə qədər yazılsa da , deyilsə də azdır. Məktəbli olmaq , müəllimlərin şagirdlərə elmi biliklər öyrətməsi , hər bir şagirdin və müəllimin qəlbində dərin izlər buraxır. Belə şagirdlərdən biri də Nəsirov Anar Elvin oğludur". Müəllimləri Anar haqqında hər zaman bu fikirlərdə olublar. Elə bu sözlərdən Anarın necə bir şagird olmağı az çox məlum olurdu əslində.*

Nəsirov Anar Elvin oğlu 2009-cu ildə mart ayının 31-də Kürdəmir şəhərində anadan olub. Daima ailəsinin göz nuru olan Anar məktəbə başladığı gündən etibarən də müəllimlərinin sevimlisi olmağı bacarıb, öz istedad və bacarığı ilə hər zaman özünü sevdirib. 2015-ci ildə bacısının da təhsil aldığı Kürdəmir şəhər Tofiq İsmayılov adına 1saylı tam orta məktəbin 1-ci sinifinə qəbul olur. Müəllimləri və sinif yoldaşları ilə çox səmimi və tərbiyəli münasibət qurduğuna görə hamı ondan çox razıdır. Dərslərində əlaçı olmaqla yanaşı həm də şirin dili və tərbiyəsi ilə hamıya nümunə olacaq uşaqlarımızdan biridir Anar. Atası Elvin bəy həmişə oğluna məsləhətlər verir, onu ruhlandıran və motivasiya edən ən böyük dəstəkçisidir. Oğlunu daima vətəninə, millətinə xeyirli biri olaraq böyütməyə çalışıb. Bunun nəticəsidir ki, onun ən böyük arzusu gələcəkdə vətəninə, dövlətinə layiq hərbiçi olmaqdır. Ondan bu barədə soruşduqda isə uşaqlıqdan bəri bu arzuda olduğunu və bu məqsədə çatmaq üçün lazım olan hər şeyi edəcəyini dedi. Biz ondakı bu qətiyyəti gördükdən sonra əminik ki, Anar gələcəkdə ən yaxşı və vicdanlı , məğrur, haqq-ədalət tərəfdarı bir hərbiçi olacaq. Torpaqlarımızın keşiyini çəkib , sərhədlərimizi qoruyan güclü Azərbaycan əsgəri...

4 nəfərlik ailədə böyü-





yən və evin kiçik oğlu , son beşiyi olan Anarın anası da hər zaman oğlunun dərslərinə, tərbiyəsinə diqqətlə yanaşıb. Zeynəb xanım da həmçinin Anarla hər mövzuda söhbət edir, diqqətlə dinləyir, cəmiyyət üçün faydalı bir övlad yetişdirir. Atası Nəsirov Elvin 1984-cü ildə sentyabr ayının 5-də dünyaya gəlib.



Fiziki tərbiyə müəllimi olan Elvin müəllim hər zaman uşaqlarına maddi -mənəvi dəstək olur, vətənpərvər , uğurlu bir övlad böyüdür. Anarla eyni məktəbdə oxuyan bacısı Aysun da hal-hazırda 6-cı sinif şagirdidir. Müəllimlərinin sözünə görə hər iki bacı -qardaş məktəbdə öz ağıl və bacarıqları ilə seçilirlər.

Anarın ailəsi və yaxınlarının onun üçün bitməz-tükənməz xoş sözləri və arzuları var. Onlardan biri də belədir: - “ Anar üçün ən böyük arzumuz odur ki, necə ki, indi ailəsi onunla fəxr edir , gələcəkdə də əldə edəcəyi uğurları ilə ailəsini və onu sevən hamının fəxri olsun. Anarı həyat heç bir zaman sındırmasın, hər zaman həyat yolları onun üçün enişdən-yoxuşdan deyil, hamarlıqdan ibarət olsun. Yurdunun , vətəninin, ata-anasının adına layiq bir övlad olsun.”

Biz də redaksiyamız adından Anara və bacısı Aysuna gələcək həyatında uğurlar arzu edirik. Inanırıq ki, hər iki övlad ailələrini daima sevindirəcək, onların başını uca edəcək.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV:

*CƏBRAYİLOVA FATİMƏ*

***Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq.***



*"Müəllim, həkim, mühəndis, marketoloq, aktyor, şair, tacirətçi, usta... hər bir peşə özünə görə müsbət və mənfi tərəfləri birləşdirir. Düşünürəm ki, uğurlu və ya uğursuz peşə olmadığı kimi, insanların uğurlu və uğursuz olması seçdikləri peşənin onların xarakterinə necə cavab verməsinin göstəricisidir. Məncə hansısa peşədə uğur qazanmaq üçün mütləq qaydada gördüyün işin aşiqi olmalısan. Yalnız belə olduğu təqdirdə biz uğurlu və güclü bir peşəkar ola bilərik." - Fatimə ilə belə başladı ilk müsahibəmiz. Ağıllı cümlələri , böyük ürəyi ilə kiçik qızımız özünə hörmət yaratmağı bacarır qarşısındakı insanda. Ən böyük arzusu müəllim olmaqdır Fatimənin . O , düşünür ki," Həkimlik son dərəcə çətin və müəllimdən sonra bəlkədə ikinci vacib peşədir. Əlbəttə, peşənin vacibi və ya qeyri vacibi olmur... AMMA müəllimlik bir başqa. Müəllim hər zaman öz həyatını, vaxtını, əyləncəsini, ailəsini şagirdlərinin həyatlarının daha parlaq olması uğrunda fəda edir. Bu çox təbiidir, çünki müəllim elə yaradılışından öyrənməyə, öyrətməyə alışmış olur. Hec bir təmənna güdmədən, daima irəli boylanan, öyrənməkdən doymayan, öyrətməkdən zövq alan müəllim ordusuna qatılmaq istəyir Fatimə balamız da.*





*Məqsədləri, hədəfləri böyük istedadı yetərli qədər olan Cəbrayilova Fatimə Anar qızı iyul ayının 15-də 2008-ci ildə Ucar rayonunda dünyaya gəlib. Ailədə 2 bacı , bir qardaş olan bu ağıllı və tərbiyyəli balalar daima valideynlərini fərəhləndirməyi bacarıblar. Fatimə bilirdi ki, onu uğura aparan yol elm qapısından keçir. Buna görə də məktəbli olmaq üçün gün sayırdı hər zaman. Və nəhayət ki həmin gün gəlib çatdı. 2015-ci ildə Ucar rayon Rəstəcə kənd tam orta məktəbin 1-ci sinifinə qədəm qoyur. Elə ilk gündən*





*müəllimlərində özünə qarşı sevgi və rəğbət yaradır. Tez bir zamanda oxuyub yazmağı öyrənir. Hal-hazırda 4-cü sinif şagirdidir. Ağıllı və düşüncəli fikirlərə sahibdir Fatimə qızımız . Bütün fənləri çox sevdiyini deyir. Amma xüsusilə riyaziyyatı və azərbaycan dilini daha çox mənimsəyir. Ən çox sevdiyi müəllim isə Yeganə müəllimdir. Dərsdən sonra boş vaxtalrında kitab oxuyur. Nitq qabiliyyətini bərpa edir. Rəsm çəkmək Fatimənin ən sevimli hobbisidir. Dərslərində əlaçı olan Fatimə uğur qapısını keçmək üçün gecə -gündüz çalışır. Var gücü ilə bezmədən hər dərsi diqqətlə mənimsəyir. Çünki o "müəllim" olacaq.... savadlı, peşəkar və bacarıqlı...*

*Ailəsinin hər zaman sevimlisi olub, diqqət və qayğı içərisində böyüdüblər Fatimə , bacısı Ləmanı və kiçik qardaşı Əbəlfəzi. Atası Cəbrayılov Anar Yanar oğlu 1984-cü ildə fevral ayının 25-də anadan olub. Övladlarını çox sevən ata daima qızlarını maddi və mənəvi təmin edib və qoruyub. Anası Cəbrayilova Dürdanə Atabala qızı 1987-ci ildə noyabr ayının 23-də dünyaya gəlib. Evdar qadın olan Dürdanə xanım qızlarının hər işində onlara dəstək olur. Onların yaxşı təhsil alması, gələcəyin ən lazımlı, fəal gənclərindən biri olması üçün əllərindən gələni artıqlması ilə edir. Fatimə də ata anasının bu zəhməti qarşılığında uğur qazanıb onları fərəhləndirmək, hamının yanında başı uca etmək niyyətindədir. Inanırıq ki , bu inadkar və qətiyyətli qızımız güclü iradəsi və əzmi ilə çox irəliyə gedəcək.*

**MURAD MAHMUDOV**

# *"YADDAŞ DA ANBAR KİMİDİR : QOYDUĞUNU SONRA TAPMAQ İSTƏYİRSƏNSƏ GƏRƏK MÜƏYYƏN QAYDA ƏSASINDA QOYASAN."*
## *(ƏBU TURXAN)*




***Bəşər tarixində yeni dövrün başlanğıcının qoyulması məhz elmin sayəsində mümkün oldu. Müasir dövrdə dünya inkişafın elə bir mərhələsinə qədəm qoyub ki, artıq cəmiyyət elmi yeniliklər, innovasiyalar olmadan keçinə bilməz. Elm qabaqcıl texnologiyaların tətbiqi sayəsində dinamik inkişaf edir, tamamilə yeni sahələri, tədqiqat istiqamətləri yaranır. O, bəşəriyyəti narahat edən problemlərin kökündə duran səbəbləri təfsilatı ilə araşdırmaqla onların həllinə dərindən nüfuz edir, müəmmalı, qaranlıq məsələlərə aydınlıq gətirir, əsrlər boyu sirli qalan bir çox suallara cavab tapır.***

*Elm bütün dövrlərdə cəmiyyətin inkişafında, rifah halının yaxşılaşmasında vacib rol oynayıb. Tarix boyu dünyanın qlobal bəlalardan, böhranlardan xilasının, bəşər övladının sağlam, işıqlı gələcəyinin keşiyində elm durub. Çağdaş dövrdə elm çox sürətlə irəliləyir. Elə "dəyişən dünya" ifadəsi də məhz elmi-texniki tərəqqi sayəsində meydana gəlib. XXI əsr bəşər sivilizasiyasının yeni inkişaf trendinə çevrilən, fantastik gələcəyi belə reallığa çevirən inqilabi elmi kəşflər, qabaqcıl texnologiya və innovasiyaların tətbiqi bu gün bizi hədəfə doğru aparır, gələcəyimizi müəyyənləşdirir.*

*Bu yazımızn qəhrəmanı öz təlim-tərbiyəsi ilə məktəb kollektivinin daim diqqətində olan Mahmudov Murad İlqar oğlu haqqında qısa da olsa öyrəndiklərimizi geniş oxucu kütləsinə təqdim edirik.*

*Mahmudov Murad İlqar oğlu 22 fevral 2008-ci ildə Kürdəmir rayonunda anadan olub. Murad 2014-cü sentyabr ayının 15-də Kürdəmir rayon T.İsmayılov adına 1 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. Hazırda 5"V" sinif şagirdidir. Məktəbə ilk qədəm qoyandan bu günə kimi öz çalışqanlığı və dərslərə olan məsuliyyəti ilə müəllimlərinin diqqətini özünə cəlb etmişdir. Ən sevimli fənləri Azərbaycan dili, rus dili, riyaziyyat və tarixdir. Müəllimləri haqqında danışarkən Murad sevimli müəllimləri olaraq Ayşə müəllim, Leyla müəllim, Gülbəniz müəllim, Ülviyyə*




*müəllimin adını çəkərək onların çox qayğıkeş, peşəkar müəllim olduğunu bildirdi. Uğurlarına gəldikdə isə "Həyat bilgisi"üzrə keçirilən bilik yarışmasında qabaqcıl yer tutaraq fəxri fərmanla təltif edilmişdir. 2019-cu il mart ayında keçirilən tarix fənni üzrə bilik yarışında 1-ci yer tutmuş və fəxri fərmanla təltif edilmişdir. 18 aprel 2019-cu ildə Böyük*




*Azərbaycan şairi İmaddədin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş ümümrayon şeir müsabiqəsinin yekun konferasında fəal iştirakına görə Kürdəmir rayon Təhsil Şöbəsi tərəfindən tərifnamə ilə təltif edilmişdir. "Nağıl qəhrəmanları ilə görüş "mövzusunda ən yaxşı esse hazırladığına görə Dil ədəbiyyat müəllimi olan Ülviyyə müəllim tərəfindən serifikatla təltif olunmuşdur. Murad asudə vaxtlarını dərs kitablarını oxumaqla və ev tapşırıqlarını etməklə keçirir. Onun gələcəkdə arzusu İncənət Universitetinə təhsil alıb aktyor olmaqdır. Murad qeyd etdi ki, yaxşı aktyor olmaq üçün təhsilin olması, daxili qabiliyyətin olması əsas şərtdir. Müasir dövrümüzdə aktyorluq sənəti önəmli sənətlər sırasında durur , çünki yüksək məvacib tələb etməyən sənətdir. Muradın ailəsi 5 nəfərdən ibarətdir.*

*Atası Mahmudov İlqar Ağamusa oğlu 17 may 1965-ci ildə Kürdəmir rayonunda anadan olub. Orta təhsillidir. Hazırda zərgərlikə məşğul olaraq öz halal zəhməti ilə ailəsini dolandırır.*

*Anası Mahmudova Zülfiyyə Nağı qızı 7 yanvar 1979-cu ildə Kürdəmir rayonunda anadan olub. Ali təhsilli olan Zülfiyyə xanım Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat və Kibernetika fakütəsini bitirib. Hazırda Tofiq İsmayılov adına 1 saylı tam orta məktəbdə riyaziyyat müəllimi işləyir. Ana adının müqəddəsliyini qoruyub saxlayan sadə mehriban bir müəllim olaraq övladlarının qayğısına qalır, onların ali təhsilli olmaları üçün əlindən gələni əsirgəmir.*

*Muradın bir bacısı bir qardaşı var:*

*Qardaşı Mahmudov Ağamusa İlqar oğlu 18 sentyabr 2003-cü ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 10-cu sinifdə oxuyur.*

*Bacısı Mahmudova Gülər 8 sentyabr 2005-ci ildə Kürdəmir rayonunda anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.*

*Yaxşı valideynin verdiyi tərbiyəni heç bir məktəb verə bilməz çünki ata-ananın mehriban münasibəti övlad üçün ən yaxşı tərbiyədir. Biz də öz heyyətimiz adından Murada uğurlar arzulayırıq ümid edirik ki, valideynlərinin başını hər zaman uca tutacaq.*



# SAVADLI ADAM MÜTAİLƏ ETMİRSƏ TƏKRAR SAVADSIZLIĞA MƏHKUMDUR. İNSAN GƏRƏK BÜTÜN ÖMRÜ BOYU MAARİFLƏNSİN. (A.V.LUNAÇEVSKİ)

**İSMAYILOVA BƏSTİ**

***2009-cu il 19 iyun tarixli" Təhsil haqqında qanunda " göstərilir ki, vətəndaşların Azərbaycan Respublikasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir təhsilin ayrı ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsində başlıca rol oynayır.***



Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla vətəndaşın cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli prioritet fəaliyyət sahəsidir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrə əsaslanır təhsil sahəsində milli-mənəvi və ümumbəşəri dəyərlərin prioritetliyi əsasında dünya təhsil sisteminə inteqrasiya olunaraq inkişaf edir. Təhsil qanunvericiliyinin əsas məqsədi təhsil sahəsində vətəndaşların konstitusiya hüququnun təmin edilməsindən və qorunmasından təhsil alanların və təhsil verənlərin düzgün müəyyən edilməsindən onlar arasında münasibətlərin tənzimlənməsindən təhsil sisteminin sərbəst fəaliyyəti və inkişafı üçün hüquqi təminatların yaradılmasından ibarətdir.



Azərbaycan Respublikasında təhsilin əsas məqsədi insan hüquqları və azadlıqlarına hörmət edən vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Vətənpərvərlik ruhunda



böyüyən müstəqil yaradıcı düşünmə qabiliyyətinə malik olan qəhrəmanlarımızdan biri də İsmayılzadə Bəsti Eldəniz qızıdır.

İsmayılzadə Bəsti Eldəniz qızı 15 oktyabr 2011-ci ildə Göyçay rayonunun 2-ci Ərəbcəbirli kəndində anadan olub. 2016-cı ildə Ərəbcəbirli kənd tam orta məktəbinə daxil olub . Hazırda həmin məktəbin 2-ci sinifində təhsilini davam etdirir. Azyaşlı balamız artıq 2 ildir ki , təhsil alır. Bəstinin sevimli fənləri olaraq Azərbaycan dili və riyaziyyat fənlərinin adını qeyd edir. Sevimli müəllimləri isə sinif müəllimi olan Tünzalə müəllimdir. Tünzalə müəllim onun yaxşı oxuması olması üçün əlindən gələni edir. Bəsti də öz növbəsində çalışır ki, Tünzalə müəllimin etimadını doğrultsun və yaxşı oxumaqla onun hər zaman başını uca eləsin.Bəsti asudə vaxtlarını maraqlı nağılar kitabları oxumaqla keçirir. Gələcək peşəsini də indidən seçən istedadlı balamızın arzusu müəllim olmaqdır. Müəllimlik ona görə ən ali peşədir. Çünki müəllim savadı ilə gələcək nəsillərin inkişafına öz töhfələrini verərək onların xeyirxah təmiz insan kimi yetişməsində mühüm rol oynayır. Bəstinin hobbisi dünya ölkələrini səyahət etmək onların tarixi adət-ənənələri ilə tanış olmaqdı.

Evin son beşiyi olan Bəsti ailəsinin sevimlisidir. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası- Atası İsmayılov Eldəniz Mayıl oğlu 10 dekabr 1976-cı ildə Göyçay rayonunda anadan olub. Orta təhsillidir. Hazırda kənd təsərrüfatı ilə məşğul olur.

Anası İsmayılova Nabat Zahid qızı 21 sentyabr 1980-ci ildə Ucar rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Bəstinin 1 bacısı 1 qardaşı var.

İsmayılova Xədicə Eldəniz qızı 14 noyabr 2004-cü ildə Göyçay rayonunda anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

Qardaşı İsmayılov Əli Eldəniz oğlu 10 fevral 2006-cı ildə Göyçay rayonunda anadan olub. Hazırda 7-ci sinifdə oxuyur.

Kollektivimiz adından Bəsti balamıza uğurlar arzu edirik. Qazandığı uğurları ilə ailəsinin başınıə hər zzaman uca eləsin.

# BÖYÜK SIÇRAYIŞI REALLAŞDIRMAQ İSTƏYƏN,BİR NEÇƏ ADDIM GERİYƏ GETMƏK MƏCBURİYYƏTİNDƏDİR.BU GÜN SABAHA,DÜNƏNLƏ BAŞLANARAK YOL AÇAR. BERTOLT BRECHT

İSMAYILZADƏ XƏDİCƏ



Dünya təcrübəsi göstərir ki, elmi-texniki tərəqqinin intensivləşdiyi, sosial-iqtisadi proseslərin mürəkkləşdiyi və dünya bazarında rəqabətin kəskinləşdiyi hazırkı dövrdə davamlı inkişafın yolu elmi cəhətdən yüksək səviyyədə əsaslandırılmış siyasətdən və elmi texniki nailiyyətlərin iqtisadiyyata tətbiqindən keçir.

Məlumdur ki elmi-texniki tərəqqi məhsuldar qüvvəyə, mühüm sosial iqtisadi inkişaf amilinə çevrilmişdir.Məhz bu dövrdə də elmlə iqtisadiyyatın üzvi şəkildə birləşməsi obyektiv zərurətdən irəli gəlir.

Jurnalmızın növbəti qəhrəmanı İsmayılova Xədicə Eldəniz qızıdır. İsmayılova Xədicə Eldəniz qızı 14 noyabr 2004-cu ildə Göyçay rayonunun Ərəbcəbirli kəndində anadan olub. 2010-cu il Ceyhun İbrahimov adına Ərəbcəbirli kənd tam orta məktəbinə daxil olaraq təhsil həyatına başlamışdır.Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Hələ 1-ci sinifdən etibarən dərsləri ilə müstəqil məşğul olan savadlı və bacarıqlı qızımız daim yüksək qiymətlər almağa nail olub. Xədicənin sevimli fənni riyaziyyatdır. Sevimli müəllimməsi olaraq isə ona dərs

*Cəmiyyətmizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaq. Bu gün qloballaşan dünya iqtisadiyyatında elmi nailiyyətlərin istehsalata tətbiqi geniş miqyas almışdır. Daha doğrusunu desək müasir iqtisadiyyatı elmi-texniki nailiyyətlərin tətbiqindən kənarda təsəvvür etmək belə mümkün deyil.*



deyən bütün müəllimləri sevdiyini bildirdi.Adətən müəllimlər ən yaxşı oxuyan məsuliyyətli və fəal şagirdlərini sevirlər.Xədicə də belə şagirdlərdəndir. O, daim təlim- tərbiyyəsi və dərsə olan münasibəti ilə müəllimlərinin diqqətini cəlb etmişdi. Xədicə yaxşı oxuduğuna və təlim -tərbiyəsində fərqləndiyinə görə məktəb rəhbərliyinin hər zaman diqqət mərkəzində olmuşdur. Asudə vaxtlarını kitab oxumaq və mütaliə etməklə və anasına ev işlərində kömək etməklə keçirir. Xədicənin həyatda idealı onun ailəsidir. Artıq gələcək peşəsini də indidən seçən Xədicənin ən böyük arzusu həkim olmaqdır. Sağlamlığı ilə bağlı əziyyət çəkənlərə kömək etməyi , onların səhhətinin qorunması üçün əlindən gələni edəcəyini bildirib. Həyatda idealı yaxşı bir insan olmaqdır. Xədicənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası İsmayılov Eldəniz Mayıl oğlu 10 dekabr 1976-cı ildə Göyçay rayonunda anadan olub. Orta təhsillidir. Hazırda kənd təsərrüfatı ilə məşğul olur.

Anası İsmayılova Nabat Zahid qızı 21 sentyabr 1980-ci ildə Ucar rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Xədicənin 1 bacısı 1 qardaşı var.

Bacısı İsmayılzadə Bəsti Eldəniz qızı 15 oktyabr 2011-ci ildə Göyçay rayonunda anadan olub. Hazırda 2-ci sin ifdə oxuyur.

Qardaşı İsmayılov Əli Eldəniz oğlu 10 fevral 2006-cı ildə Göyçay rayonunda anadan olub. Hazırda 7-ci sinifdə oxuyur.

Kollektivimiz adından Xədicə balamıza gələcək həyatında uğurlar arzulayırıq. Ümid edirik ki, arzuladığı peşəyə sahib olacaq və xalqının sağlamlığının keşiyində duracaq.



# “MƏŞHUR ADAM OLMAQ XOŞBƏXTLİK , FAYDALI ADAM OLMAQ İSƏ İNSANLIQ BORCUDUR.” (VİKTOR HÜQO)

İSMAYILOV ƏLİ



***Heç kəsə sirr deyil ki, gənclik bir millətin yaşaması, inkişafı üçün təməl daşıdır. Bir millətin mövcud olması üçün onun sağlam gəncliyinin olması vacib şərtdir.***

Çünki hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual, səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır.

Bu gün gənc nəslin düzgün yetişdirilməsi ölkə siyasətində önəmli yer tutur. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar.

Ümummilli liderimiz Heydər Əliyev öz siyasətində daima gənclərə qayğı göstərmiş, onların bir fərd kimi yetişməsinə xüsusi önəm vermişdir. Ulu öndər respublika rəhbərliyinə gəldiyi ilk dövrlərdən gənclərin himayədarı kimi çıxış edərək sağlam düşüncəli yeni nəslin yetişdirilməsi sahəsində misilsiz işlər görmüşdür. Hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir cox fərman və sərəncamlar imzalayan ulu öndər gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə həmişə önəm vermişdir. Heydər Əliyev nitqlərinin birində bu barədə demişdir? "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizə yaxşı bələd olmalı, dilimizi yaxşı bilməlidir. Hər bir gənc vətənpərvər olmalıdır, vətənpərvərlik böyük məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik". Belə ruhda böyüyən qəhrəmanlarımızdan biri də İsmayılov Əli Eldəniz oğludur.

İsmayılov Əli Eldəniz oğlu 10 fevral 2006-cı ildə Göyçay rayonun Ərəbcəbirli kəndində dünyaya göz açıb. Ömrün ən gözəl və mənalı illərini əhatə edən təhsil həyatına 2012-ci ildə Ceyhun İbrahimov



adına Ərəbcəbirli kənd tam orta məktəbinə daxil olmaqla başlamışdır. Hazırda Əli 7-ci sinifdə oxuyur. 7 ildir ki , dərslərinə ciddi hazırlaşan Əli müəllimlərinin adını qürurla çəkdikləri şagirdlərdəndir. Ən sevimli fənləri Azərbaycan dili , riyaziyyat, biologiya, fizika , kimya və fiziki tərbiyədir.Alimə müəllim, Rəna müəllim, Fəridə müəllim, Şahin müəllim, Böyükağa müəllim və Xanım müəllim isə onun sevimli müəllimləridir. Əliylə apardığımız müsahibədə uğurların olubmu sualını verdikdə bəli cavabnı eşitmiş olduq. O , təffəkkür tədris mərkəzinin təşkil etdiyi sınaq imtahanında iştirak edərək 3-cü yerə layiq görülmüş və diplomla təltif edilmişdir.Hər bir şagird kimi Əlinin də öz gələcəyi ilə bağlı çoxlu arzuları və ümidləri var. O gələcəkdə həkim olmaq istəyir. Qədim və humanist peşə olan həkimlik insanlarının səhhətinin qorunmasına xəstəliklərin qarşısının alınmasına yönəlib.Bu peşə olduqca çətin və məsuliyyətli peşədir. Ümid edək ki, Əli də bu peşəni layiqincə yerinə yetirəcək. Qəhrəmanımız asudə vaxtlarını idmanla məşğul olmaqla keçirir. Həyatda idealı Cristina Ronaldodur. Əligilin ailəsi 5 nəfərdən ibarətdir.

Atası İsmayılov Eldəniz Mayıl oğlu 10 dekabr 1976-cı ildə Göyçay rayonunda anadan olub. Orta təhsillidir. Hazırda kənd təsərrüfatı ilə məşğul olur. Əli bildirib ki, atam çox xeyirxahdır. O , hamıya yaxşılıq edir.

Anası İsmayılova Nabat Zahid qızı 21 sentyabr 1980-ci ildə Ucar rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır.

Əlinin 2 bacısı var.

İsmayılzadə Bəsti Eldəniz qızı 15 oktyabr 2011-ci ildə Göyçay rayonunda anadan olub. Hazırda 2-ci sinifdə oxuyur.

İsmayılzadə Xədicə Eldəniz qızı 14 noyabr 2004-cü ildə Göyçay rayonunda anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

"Təhsil Yenilikləri" jurnalının əməkdaşları olaraq Əli balamıza həyatında uğur və nailiyyət arzu edir, gələcəklə bağlı qurduğu bütün arzularına çatmağını diləyirik.



# BİLİYİN AĞASI OLMAQ ÜÇÜN ZƏHMƏTİN KÖLƏSİ OLMAQ LAZIMDIR. (ONORE DE BALZAK)

İLHAN MƏHƏRRƏMLİ




***Bu gün Azərbaycan gəncliyinin önündə böyük qapılar, yollar açılıb. Tarixi milli-mənəvi dəyərlərimiz, Azərbaycan dövlətinin həyata keçirdiyi tədbirlər, eyni zamanda, ölkəmizin zəngin resursları gənclərimizin inkişafı üçün müvafiq şəraiti yaradır. İndi əsas vəzifə gənclərin bu imkanlardan layiqincə yararlanıb, həm öz inkişafını təmin etmək, həm də dövlətimizin mənafeyini etibarlı şəkildə müdafiə edən layiqli vətəndaş kimi formalaşmaq üçün ciddi iradə ilə çalışmalıdır. Hər bir gənc öz yolunu müstəqil Azərbaycan Respublikasının həyat yolu kimi qəbul etməlidir.***

Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı Sərəncamı gənclərin ölkə həyatındakı fəallığını daha da artırıb. Azərbaycanda uğurla həyata keçirilən dövlət gənclər siyasəti bu gün gənclərin ölkə həyatının bütün sahələrindəki fəallığını daha da artırıb. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb, uşaq və gənclərin qeyri-hökumət təşkilatlarının yaradılması, fəaliyyətlərinin təşkili üçün sağlam mühit yaradılıb və hüquqi baza təkmilləşdirilib.




AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
Laçın rayon Məzahir İsmayılov adına Cicimli kənd tam orta məktəbi
FƏXRİ FƏRMAN
Məktəbin I sinif şagirdi
Məhərrəmli İlhan Habil oğlu
2016/2017-ci tədris ilində əla oxuduğuna və nümunəvi davranışına görə
TƏLTİF OLUNUR.
Məktəbin direktoru: Aslanov Ə.
14.06.2017


AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ
LAÇIN RAYON TƏHSİL ŞÖBƏSİ
Laçın rayon Məzahir İsmayılov adına Cicimli kənd tam orta məktəbi
FƏXRİ FƏRMAN
Məktəbin II sinif şagirdi
MƏHƏRRƏMLİ İLHAN HABİL oğlu
2017/2018-cü tədris ilində əla oxuduğuna və nümunəvi davranışına görə
TƏLTİF OLUNUR.
Məktəbin direktoru: Aslanov Ə.
14.06.2018

Jurnalımızın işıq üzü görən yeni sayında haqqında bəhs edəcəyimiz qabaqcıl bilikli və bacarıqlı şagirdlərdən biri Məhərrəmli İlhan Habil oğludur.

Məhərrəmli İlhan Habil oğlu 9 noyabr 2009-cu ildə Sumqayıt şəhərində anadan olub. 2015-ci ildə İlhan Laçın rayon M.İsmayıl adına Cicimli kənd tam orta məktəbin 1-ci sinifinə daxil olub. Hazırda 3-cü sinifdə oxuyur. Qısa bir




müddət ərzində savadı, oxumağı ilə məktəbdə müəllimlərin sevimlisinə çevrilib. Elmlərin şahı olan riyaziyyatı çox sevir. Bu fənnə qarşı onda xüsusi maraq oyadan Ema müəllimin rolu böyükdür. Həmçinin Şəmil müəllimin də onun yaxşı oxumağında dərslərə qarşı həvəsinin artmasında mühüm rolu var. Müsahibimizlə apardığımız söhbət əsnasında uğurlarından söhbət düşdükdə İlhan ilk uğurunun hələ birinci sinifdə oxuyan zaman olduğunu bildirib. 2016-2017 tədris ilini əla qiymətlərlə oxuduğuna və nümunəvi davranışına görə məktəb rəhbərliyi tərəfindən fəxri fərmanla təltif olunub. Bu uğurunu əks etdirən fəxri fərmanı 2-ci və 3-cü sinifdə də alıb. Dərslərindən əlavə fərqli istedadını üzə çıxarmaq üçün rəssamlıqla da məşğul olur. Bu onun sevimli məşğuliyyətidir. Həyatda idealı atasıdır. Ən böyük arzusu gələcəkdə polis olmaqdır. Polislik hüquq müstəvisində geniş yayılan peşədir. Peşəkar səviyyədə isə bu peşəyə sahib olmaq üçün hər şeydən öncə ali təhsilli və vicdanlı biri olmalısan.

Övladlarının istedad və bacarığına bələd olan valideynləri İlhanın gələcəyini parlaq görmək arzusundadılar. İlhanın ailəsi 6 nəfərdən ibarətdir.

Atası Məhərrəmov Habil Saday oğlu 18 iyun 1972-ci ildə Şuşa rayonunda anadan olub.Orta təhsillidir. Hazırda fərdi əməklə məşğul olmaqla ailəsini halal zəhməti ilə dolandırır.

Anası Məhərrəmov Nüranə Nazir qızı 7 iyul 1982-ci ildə İsmayıllı rayonunda anadan olub. Orta təhsillidir. Hazırda evdar xanımdır. Mehriban, qayğıkeş ana övladlarının təlim-tərbiyəsi ilə yaxından maraqlanır.

İlhanın 2 bacısı 1 qardaşı var.

Qardaşı Məhərrəmli İlahim Habil oğlu 12 iyul 2005-ci ildə Sumqayıt şəhərində anadan olub. Hazırda 8-ci sinifdə oxuyur.

Məhərrəmli Aytac habil qızı 13 sentyabr 2006-cı ildə Sumqayıt şəhərində anadan olub. Hazırda 7-ci sinifdə oxuyur.

Məhərrəmli Məleykə Habil qızı 7 oktyabr



2016-cı ildə Sumqayıt şəhərində anadan olub. Azyaşlıdır.

İlhan balamızı jurnal kollektivi adından təbrik edir, gələcək həyatında uğurlar diləyirik. Elmin, biliyin ona öyrətdiyi həqiqətlər və gerçəklər daim həyat yolunda ona kömək olsun.

# "MÜƏLLİM BİR ŞAMA BƏNZƏR, ÖZÜNÜ ƏRİDƏRƏK BAŞQALARINA İŞIQ VERƏR".
(M.K.ATATÜRK)

*Cəmiyyətin, millətin gələcəyi müəyyən mənada müəllimin əlindədir. Deyirlər ki, bir milləti məhv etmək üçün onun müəlliminin və həkiminin savadsız olması kifayətdir: biri milləti mənəvi cəhətdən, digəri isə fiziki cəhətdən şikəst edəcəkdir.*

## HÜSEYNOVA NƏRMİN



***İnsana ilk düz yol göstərən, onun yaşamaq üçün mükəmməl insan olmasında stimul verən əsas qüvvə müəllim sayılır. Müəllim yüksək əqidə, məslək sahibi olmalıdır. Müəllim vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir.Əslində, müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir. Yəni müqəddəs olanlar öz vəzifələrini layiqincə yerinə yetirən insanlardır.***

Hər kəsin taleyində müəllimin yeri var. Bu, həqiqətən belədir. Əlindən tutub əlifbanın ilk hərfini, «ana» kəlməsini yazmağı, saymağı öyrədən ilk müəllimini kim xatırlamır? Məktəb partası arxasında keçən illərdə müəllimlər bizdə Vətənə, torpağa sevgi hissi aşılayırlar. Biz onların sayəsində bütün varlığımızla xalqımızın əsrlərin sınağından çıxan adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə bağlanmışıq, dünyagörüşümüz, həyata sağlam baxışımız formalaşıb.

Haqqında danışacağımız növbəti sevimli qəhrəmanımız Hüseynova Nərmin Rəfael qızıdır. 4 nəfərlik ailənin son beşiyi olan Hüseynova Nərmin Rəfael qızı 6 aprel 2009-cu ildə Bərdə rayonunun Yenidaşkənd kəndində anadan olub. 2015-ci ildə Bərdə rayon Yasəf Kərimov adına Yeni Daşkənd kənd tam orta məktəbin 1-ci sinifinə daxil olaraq öz təhsil həyatına başlamışdır. O, hazırda həmin məktəbin 4"a"sinif şagirdidir. Nümunəvi şagird olan Nərmin müəllimləri tərəfindən sevilən nümunəvi şagirdlərdəndir. 4 ildir ki, təhsil almasına baxmayaraq əlaçı şagird adını alıb. O, hər zaman dərslərinə hazırlıqlı olur. Ən sevimli fənni isə doğma dilimiz olan Azərbaycan dili, dəqiq fənnlərdən olan riyaziyyat və ətraf mühit haqqında elm olan həyat bilgisidir. Ondan hansı müəl-



limlərini çox sevdiyini soruşduqda bütün müəllimlərinə qarşı hörmət və sevgi hissi ilə yanaşdığını bidirdi. Daim öz şagirdlərinə qayğı və nəvazişlə yanaşan müəllimləri çalışır ki, şagirdləri yaxşı oxusun gələcəyin parlaq nümayəndələri olub, xalqın ,dövlətin keşiyində dursunlar. İstedadlı şagird olan Nərminin gələcəkdə ən böyük arzusu orta məktəbi uğurla başa vurub Tibb Universiterinə daxil olmaqdır. Daha sonra isə peşəkar həkim kimi fəaliyyət göstərib , xalqına qarşı məsuliyyətli həkim olmaq istəyir. Nərmin bildirir ki, yaxşı həkim olmaq üçün gərək çox çalışasan. Hətta bu arzusuna çatmaq üçün o çoxlu kitablar oxuyur, mütaliələr aparır. Asudə vaxtlarını isə musiqiyə qulaq asmaqla keçirir. Həyatda idealı anası olan Nərmin anasına çox bağlı olduğunu, onu çox sevdiyini deyib. Hobbisi isə rəqs etməkdir. Mehriban ailə 4 nəfərdən ibarətdir.

Atası Hüseynov Rəfael 49 aşındadır, xarici ölkədə çalışır. Anası Hüseynova Günel 38 yaşındadır. O, evdar xanımdır, övladlarının təlim-tərbiyəsi ilə məşğul olur. Nərminin Gülər adında bacısı var. O, 6-cı sinif şagirdidir. Yaşadığımız bu təzadlı dünyada nümunəvi valideynlər olmaq təlim-tərbiyələri ilə çox düzgün övladlar böyüdüb boya-başa çatdırmaq çox məsuliyyətli və eyni zamanda şərəfli bir işdir. Rəfael bəy və Günel xanım bu məsuliyyətli işin öhdəsindən asanlıqla gəlirlər. Çalışırlar ki, övladlarının gələcəyi parlaq olsun.

Nərmin balamızın hələ bu yaşından bədii təfəkkürü anbaan ,günbəgün , pillə-pillə ucalıb artaraq, yaradıcılıq çeşməsi getdikcə coşaraq, öz cığırını tapmaqdadır. Biz də ona bu cığırla addımlamağı , seçdiyi peşənin sayılıb-seçilənlərdən olmasını diləyirik.

# VALİDEYNİN ÖVLADA MƏHƏBBƏTİ - TƏBİİ, ÖVLADIN VALİDEYNƏ MƏHƏBBƏTİ İRADİDİR. (NƏSRƏDDİN TUSİ)

## HÜMBƏTZADƏ HÜSEYN




Valideynin ən böyük arzusu övladını düzgün tərbiyyə və əxlaqla yetişdirməkdir. Ailənin kiçik oğul övladı olduğundan ata - anasının daima diqqət mərkəzində olub Hüseyn. Bacıları da hər zaman Hüseynə böyük hörmət və sevgi bəsləyib. Hal-hazırda 4-cü sinif şagirdi olan Hüseyndən gələcəkdəki hədəflərini , seçmək istədiyi peşəni soruşduqda maraqlı fikirlər eşitdik ondan. O bildirdi ki,” bəlkə də hamı ən rahat və asan peşə seçmək istəyir özünə. Amma Hüseyn ciddi və məsuliyyətli bir işin altına girərək, ailəsinin onu yetişdirdiyi vətənpərvərlik ruhunu öndə tutaraq polis olmaq arzusundadır. Polislik çox vicdanlı və şərəfli peşədir.” Onun bu yaşda belə ağıllı , qətiyyətli fikirlərindən sonra əmin olduq ki , gələcəyin ən yaxşı və bacarıqlı polislərindən biri ilə qarşı- qarşıya dayanmışıq sanki. Bu peşə onun qəlbinə yol tapıb. Amma Hüseyn bilir ki çox çalışsa, nəticədə öz istədiyi müvəffəqiyyətə nail olacaq.

Kiçik müsahibimiz Hümbətzadə Hüseyn Ziyad oğlı 2008-ci ildə noyabr ayının 10-da Ağsu şəhərində dünyaya gəlib. Gəlişi ilə sevinc, şadlıq, uğur gətirib ailəsinə. Ailənin kiçik övladı olan Hüseyn dəcəlliyi ilə seçilsə də , tərbiyyəsi və hərəkətlərinin ağıllığı bu dəcəlliyi unutdurur. 2015 -ci ildə Bakı şəhərində yerləşən Binəqədi rayon 306 saylı tam orta məktəbin birinci sinifinə daxil olan Hüseyn hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. Müəllimlərinin hamısı onun haqqında ürək açan sözlər deyirlər. Tez bir zamanda məktəbə və dərslərinə adaptasiya olan Hüseyn dərslərində olduqca bacarıqlıdır. Riyaziyyat, azərbaycan-dili ,ingilis-dili və informatika fənlərini xüsusi ilə sevir. 2018-ci ildə Hüseyn cüdo üzrə keçirilən yarışlarda 5 medal və 5 diplomla təltif olunub. Hüseyn futbol oynamağı və idmanla məşğul olmağı çox sevir.

Atası Hümbətov Ziyad 1980-ci ildə yanvar ayının 13-də anadan olub. Ziyad bəy ticarətlə məşğul olur və maddi-mənəvi hər zaman övladlarının və ailəsinin arxasında dayanır. Ziyad bəyin uşaqlarına olan düşkünlüyü və həssaslığı da diqqətimizdən qaçmadı. Anası Billurə xanım evdar xanım olduğundan onların dərslərinə hər zaman xüsusi vaxt və zaman ayırıb. Müəllimləri ilə hər daim ünsiyyət saxlayıb, uşaqların dərsləri , davamiyyəti , hərəkətləri barədə ətraflı məlumat alıb. Müəllimləri də Hüseyn və bacıları Füruzədən daima razılıqlarını bildiriblər. Hər üç bacı və qardaş məqsədləri naminə var gücləri ilə çalışırlar. Məqsədyönlü və irəli görüşlü uşaqlar olduğundan hər zaman diqqət mərkəzində olmağı bacarıblar. Çıxdıqları bu yolda biz də onlara uğur arzu edirik və inanırıq ki , hər zaman adları yüksəklərdə olacaq və uğur pilləkənlərini axsamadan qalxacaqlar.

# GƏLƏCƏYİN MƏQSƏDLİ "MÜƏLLİMİ" ....

**Hümbətova Nuranə**



***Müəllim peşəsi unudulmaz və iz qoyan ixtisaslardandır. Çünki bütün uşaqların xəyalında hər zaman ilk müəllim canlanır. Hər bir şagirdin ən az bir unudulmaz müəllimi olur. Bu gözəl müsahibimiz də yaddaşlarda qalan , hər zaman xatırlanan müəllimlərdən olmaq istəyir. Əlində olanları sonuna qədər dəyərləndirən, öz istedad və bacarığının fərqində olan Nuranə hər zaman bir amalla yaşayıb. Nə olursa olsun həvəsdən düşmədən istədiyinə can atmaq və məqsəd nə olur olsun ona nail olmaq. Bu düşüncədir ki , elə Nuranə uşaqlığından bəri əlinə aldığı hər işi həvəslə və motivasiya ilə yerinə yetirib. Məktəb və elm onun üçün irəliyə addımladığı yolda bir açar olub. O bütün sirrlərin qapısını açıb, özünə lazım olanı alacaq bu həyatdan. Bu qədər iddialı və istedadlı qızdır müsahibimiz.***

*Bu gun həmin qızımız haqqında məlumatlarla tanış olacağıb. Belə ki, Hümbətova Nuranə Ziyad qızı 2005-ci ildə Ağsu şəhərində dünyaya gözlərini açıb. Evin, ailənin ilk övladı, böyük qızı olan Nuranə uşaqlıqdan təşəbbüskar, cəsarətli və həvəsli olmaqla öz gələcəyini ilmək-ilmək toxuyur demək olar. Elm həyatına 2011-ci ildə Bakı şəhərində 306 saylı tam orta məktəbin 1-ci sinifində başlayıb .Hal-hazırda 8-ci sinifdə təhsil alan Nuranə gələcəyin peşəkar müəllimi olmaq arzusundadır. Onun hal-hazırda məqsədi məktəbi mükəmməl şəkildə bitirmək, təhsilini ən yaxşı səviyyədə öyrənib sevdiyi peşəsinə yiyələnmək istəyir. Hər başladığı işdə uğur qazanmağı qarşısına məqsəd qoyan Nuranə bunun da öhdəsindən məharətlə gələcəyinə əmindir. Özünə inamla , dürüst şəkildə yaşamaqla hədəf və arzularını reallaşdırmağa çalışaraq daima ailəsinin ümidlərini doğrultmağa , onların başını uca etməyə , ailəsinin fəxri olmağa səy göstərir. Özündən sonra gələcək nəsillərə peşəkar səviyyədə dərs keçmək niyyətindədir. Gələcəyi formalaşdırmaq isə bu gündən başlayır. Belə ki, Nuranə dərslərində çox fəaldır. Azərbaycan -dili, riyaziyyat və tarix dərslərini isə xüsusilə sevir. Bu yolda ona müəllimləri də çox dəstək olub. Aygün müəllim, Gülnarə müəllim və Mahizər müəllim isə daha çox onun ürəyini ələ alan müəllimlərdəndir. Qəzet tərəfindən diplomla təltif olunub. Boş vaxtlarında isə bədii ədəbiyyat oxuyur. Musiqi dinləməklə dincəlir.*

*5 nəfərlik kiçik bir ailənin böyük qızı olan Nuranə müəllimləri , qohumları , yaxınları arasında hər daim tərbiyyyəsi , yaşına görə inkişaf etmiş dünyagörüşü ilə seçilib. Atası Hümbətov Ziyad 1980-ci ildə dünyaya gəlib. Ticarətçi olaraq çalışmaqla alın təri, əməyi ilə övladlarının həmişə arxasında dayanıb. Anası Hümbətova Billurə Rasim qızı 1983-cü ildə dünyaya gəlib. Evdar xanım olsa da övladlarının təhsili ilə maraqlanmaqla yanaşı , evin bütün qayələrinin məharətlə öhdəsindən gəlir. Ana və atasının bu zəhmətlərini göz önündə tutan Nurananin , onların adına layiq olmağa çalışdığını deyir.*

*Bizdə inanırıq ki, bu inadkar və əzmli gənc qız həyatın keşməkeşlərindən üzü ağ və başı dik çıxacaq. Əsas olan məqsəd və hədəflərinin bəlli olmasıdır. Gerisində həyat axarı səni öz yolu ilə aparacaq. Nurananin həyat yolunun rəngarəng olmasını ümid edirik. Bu yol ki , onun arzularının açarı olacaq.*